www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13-14 fevral 2016-cı il Şənbə № 34 (6355) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycanda 8 İŞİD-çi tutuldu

yazısı səh.12-də

**Gündəm**

### İkinci Qarabağ müharibəsi qapıda - ekspertlər xəbərdarlıq edir



Bütün cəbhə xətti boyu gərginlik müharibə ehtimalının reallaşmağa doğru getməsi mənzərəsini yaradıb; "Azərbaycan qəfildən genişmiqyaslı antiterror əməliyyatına başlamalıdır..."

yazısı səh.9-da

### Gürcüstan Rusiyaya tərəf meyllənə bilər

yazısı səh.4-də

### ABŞ-da seçki marafonunda gözlənilməz nəticələr

yazısı səh.6-da

### "Bələdiyyələrə ya müstəqillik verək, ya da onları birdəfəlik ləğv edək"

yazısı səh.7-də

### Sahibkarlar vergidə üzləşdikləri qanunsuzluqlardan prezidentə yazdılar

yazısı səh.6-da

*Sosioloq Əhməd Qaşəmoğlu:*

### "Nazirlərin əyalətə gəlişi sabaha inamı artırır, bu, vacib addımlardan biridir"

yazısı səh.10-da

### Moskva müqaviləsi ləğv olarsa...

yazısı səh.6-da

### ABŞ kəşfiyyatından Cənubi Qafqazla bağlı xəbərdarlıq

yazısı səh.4-də

### Sülh anlaşmasına ən böyük təhlükə - status-kvo...

yazısı səh.13-də

### Təhlükədə olan banklar birləşmək istəmir

yazısı səh.11-də

### Dollar kreditləri məsələsi dalana dirənib

yazısı səh.11-də

## Tanınmış iş adamına müdhiş ittihamlar

# "BİZİM MARKET"İN RƏHBƏRİ ÖLKƏDƏN 100 MİLYON DOLLAR ÇIXARIB - ŞOK TƏFSİLAT

Pullar Cahangir Hacıyev vasitəsilə Beynəlxalq Bank üzərindən Kanada və Türkiyəyə köçürülüb; Xanımbacı İsmayılova: "Rasim Salmanov 11 milyon dollara Türkiyə "Zorlu" ticarət mərkəzində ev, Kanadada torpaq sahələri, "Ferrari" markalı maşın və digər əmlaklar alıb"; biznesmen vergidən yayınmaq üçün hansı üsulu seçib?




yazısı səh.5-də

## NATO gəmiləri ilk dəfə Batumi limanında - Azərbaycanın "Qərb qapısı" nəzarətə götürülür

Gürcüstanla birgə təlimlər planlaşdıran Alyans bununla bölgənin strateji əhəmiyyətli kəmər və nəqliyyat dəhlizlərini də zəmanət altına alacağı ilə bağlı Rusiyaya açıq mesaj verdi; Kremlin cavabı nə olacaq?..

yazısı səh.4-də



*İlham Əliyev:*

### "Postneft dövrünə 2030-cu ildən sonra hazırlaşmağı planlaşdırırdıq"

yazısı səh.2-də



*Qabil Hüseynli:*

### "Nazir uşaqlarının ən azı Bakıdakı hərbi hissələrdə qulluq etdiyinə dair məlumatlar var"

yazısı səh.10-da



*Sərdar Cəlaloğlu:*

### "Azərbaycan xalqı dünya güclərinin kələyinin nədən ibarət olduğunu başa düşə bilmir"

yazısı səh.8-də

YENİ MÜSAVAT
N 34 (6355) 13 fevral 2016



Əli Həsənov:

# “Mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında...”

**Azərbaycanda milli-mənəvi dəyərlərin, multikulturalist ideyaların təbliğində vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri geniş imkanlara malikdir və onların bu sahədə rolunu getdikcə artırmağa çalışırıq.**

Bu fikri **Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov** AZƏRTAC-a müsahibəsində deyib.

Əli Həsənov bildirib ki, son zamanlar ölkəmizdə kütləvi informasiya vasitələrinin əhatə dairəsi getdikcə genişlənir. Gün ərzində əhalinin 75 faizindən çoxu televiziyaları, internet resurslarını izləyir, qəzet oxuyur. Odur ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında çalışan məmurlar multikulturalist ideyaların yayılmasında, milli-mənəvi dəyərlərin zənginləşdirilməsində, əhalinin bu istiqamətdə maarifləndirilməsində vətəndaş cəmiyyəti institutlarının, o cümlədən KİV-in imkanlarından daha geniş istifadə etməlidirlər.

**Regionlarda ictimaiyyətin nümayəndələri ilə keçirilən görüşlərə toxunan Əli Həsənov deyib:** “Bu görüşlər regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda dövlətimizin başçısının verdiyi tapşırığa uyğun olaraq keçirilir.

Bunun da bir neçə məqsədi var. Məqsədlərdən biri budur ki, əvvəla, mərkəzi icra hakimiyyəti orqanları rayon əhalisi ilə daha sıx təmasda olsun. İctimaiyyət nümayəndələrinin hakimiyyət orqanları ilə bağlı təklifləri, rəyləri, ideya və təşəbbüsləri ümumiləşdirilərək həyata keçirilən islahatlar prosesində istifadə edilsin. Azərbaycan Prezidenti müəyyənləşdirdiyi yeni iqtisadi kursa müvafiq olaraq, mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında mühüm vəzifələr qoyub. Həmin görüşlərdə bu vəzifələr əhaliyə çatdırılır, yerlərdə onun izahı verilir. Bundan məqsəd ictimaiyyətin təşəbbüsləri ilə dövlətin yürütdüyü siyasəti birləşdirərək bu proqramlara dinamizm vermək, rayonlarda əhalinin, icra strukturlarının və bütövlükdə vətəndaş təşəbbüslərinin koordinasiyasını həyata keçirmək, islahatların daha sürətlə və effektiv aparılmasına şərait yaratmaqdır.

Digər məqsədlər də var: İnsanların məsuliyyətini artırmaq, yerli resursları işə salmaq, ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı Prezidentin təşəbbüslərinin həyata keçirilməsində insanların dəstəyini təmin etmək, rayonlarda sahibkarlıq mühitini daha da təkmilləşdirmək, neqativ halların aradan qaldırılması üçün əhalidən gələn istək və arzuları ümumiləşdirmək və s. Yəni məqsəd genişdir və bu istiqamətdə də işlər davam etdirilir".

## “Qaya Mətbuat Yayımı” MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**“Yeni Mesavat” - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# İlham Əliyev ABŞ müdafiə katibinin kəşfiyyat üzrə müavini ilə görüşüb

## “Postneft dövrünə 2030-cu ildən sonra hazırlaşmağı planlaşdırırdıq”

**Prezident İlham Əliyev fevralın 12-də Münhendə ABŞ müdafiə katibinin kəşfiyyat üzrə müavini Marsel Lettre ilə görüşüb. (AzərTAc)**







Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi bildirilib.

İki ölkə arasında münasibətlərin bir sıra sahələrdə tərəfdaşlıq səviyyəsində olduğu vurğulanıb. Terrorizmlə mübarizə sahəsində əməkdaşlıq baxımından yaxşı perspektivlərin olduğu qeyd edilib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

“Biz indi yaşadığımız vəziyyəti neft hasilatının azalmağa başladığı bir dövrdə - ola bilsin, 15-20 il bundan sonra proqnozlaşdırmağa çalışırdıq. Biz bu dövrə hazır deyildik”.

APA-nın məlumatına görə, bunu Azərbaycan prezidenti İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində “Neftin qiymətinin aşağı düşməsi geosiyasi məsələləri üzrə enerji təhlükəsizliyi” mövzusunda “dəyirmi masa”da çıxışında deyib.

“Əslində, biz postneft dövrünə 2030-cu ildən sonra hazırlaşmağı planlaşdırırdıq. Lakin bu yaxınlarda Nazirlər Kabinetinin iclasında söylədiyim kimi, neftdən sonrakı dövr artıq bizim üçün başlayıb və bu, gözlənilməz idi. Səmimi söyləsəm, hesab edirəm ki, neftin qiymətinin dörd dəfə aşağı düşəcəyini heç kim təsəvvürünə gətirə bilməzdi. Biz hazır deyildik, heç kim hazır deyildi. Ona görə çox qısa vaxt çərçivəsində biz büdcənin necə tarazlaşdırılması, sosial proqramların necə davam etdirilməsi və hansı investisiya layihələrinə maliyyələşdirmənin dayandırılması yolunu tapmalı idik. Bu, asan deyildi. Çünki biz 100 dollardan baha olan qiymətə öyrəşmişdik.

Əlbəttə ki, bizim uzun illər üçün nəzərdə tutulmuş inkişaf planımız var idi. Bizim daha yüksək neft qiymətinə əsaslanan “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyamız var idi. İndi isə neftin qiyməti aşağıdır", - deyə o vurğulayıb.

**Azərbaycan prezidenti qeyd edib ki, bu, real bir çağırış idi:** “Lakin yenə də qeyd etmək istəyirəm ki, biz iqtisadiyyatımızın şaxələndirilməsi və infrastruktura sərmayə qoyuluşu siyasəti sayəsində, hesab edirəm ki, bu vəziyyətdən minimum itkilərlə çıxmağı bacardıq”.

# Rüfət Səfərov prokurorluqda dindirildi

**Zərdab rayon Prokurorluğunun sabiq müstəntiqi Rüfət Səfərov Baş Prokurorluğun Korrupsiyaya Qarşı Mübarizə İdarəsində ifadə verib.**

APA-nın məlumatına görə, ifadə verəndən sonra R.Səfərov sərbəst buraxılıb. R.Səfərov bunun istintaqın gedişi ilə bağlı olduğunu və sabah yenidən ifadə vermək üçün idarəyə çağırıldığını deyib.

Qeyd edək ki, yanvarın 15-də Binəqədi rayon Məhkəməsinin qərarı ilə R. Səfərov barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Həmin qərardan məhkəməyə müraciət olunaraq həbs qərarının ev dustaqlığı ilə əvəz olunması istənilib. Yanvarın 22-də onun müraciətinə Binəqədi rayon Məhkəməsi tərəfindən baxılıb və barəsində seçilmiş həbs qətimkan tədbiri ev dustaqlığı ilə əvəz olunub.

Məhkəmənin qərarına əsasən R.Səfərov Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsi ilə təqsirləndirilir.

**Xatırladaq ki, R.Səfərov Müdafiə Nazirliyinin mətbuat xidmətinin keçmiş rəisi Eldar Sabiroğlunun oğludur.**

# TQDK-nın keçirəcəyi sınaq imtahanlarının vaxtı açıqlanıb

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) ali təhsil müəssisələrinin bakalavriat, magistratura və rezidentura səviyyələrinə qəbul olmaq istəyən abituriyent və namizədlər üçün sınaq imtahanı keçirəcək.**

TQDK-nın mətbuat xidmətindən Musavat.com-a verilən məlumata magistratura və rezidenturaya qəbul imtahanlarının birinci mərhələsinə hazırlaşan namizədlər üçün on-line sınaq imtahanı keçiriləcək.

Bildirilib ki, qəbul imtahanı ərəfəsində namizədlərə öz bilik səviyyələrini real qiymətləndirməyə imkan yaradan online imtahanda suallar qəbul imtahanının birinci mərhələsi üzrə qəbul proqramı əsasında təqdim olunacaq: “İmtahanda iştirak etmək istəyənlər TQDK-nın virtual ödəmə kartını əldə etməlidirlər. Bu ödəmə kartını internet ödəmə və ya bütün mobil operatorlardan 7735 nömrəsinə SMS göndərməklə əldə etmək olar.

Magistraturaya sınaq imtahanına yazılışın fevralın 20-dən, rezidenturaya - martın 19-dan həyata keçirilməsi nəzərdə tutulur. Arzu edənlər Komissiyanın internet saytının müvafiq səhifəsində (http://eservices.tqdk.gov.az/sinaq/) qeydiyyatdan keçərək online rejimdə sınaq imtahanı verə biləcəklər".

Qeyd olunub ki, ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlərin qəbul imtahanlarına daha səmərəli hazırlaşmalarına kömək məqsədi ilə aprelin 3-də cari il üçün ilk sınaq imtahanı keçiriləcək: “İmtahan respublikanın 29 şəhər və rayonunda olmaqla, 61 imtahan mərkəzində təşkil olunacaq. Aprel ayının 3-də keçiriləcək sınaq imtahanlarına qeydiyyat fevralın 24-dən etibarən aparılacaq. Sınaq imtahanlarına yazılmaq üçün ödəmə kartını bütün mobil operatorlardan 7735 nömrəsinə SMS göndərməklə əldə etmək olar”.

TQDK sınaq imtahanlarında iştirak edəcək abituriyentlərin diqqətinə çatdırıb ki, imtahan binalarına buraxılış yalnız abituriyentin özünün şəxsiyyət vəsiqəsi və imtahana buraxılış vərəqəsi əsasında həyata keçiriləcək: “Bu iki sənəddən biri olmadıqda və ya onlar arasında uyğunsuzluq olduqda, eləcə də başqasının (valideyninin, digər qohumunun və s.) şəxsiyyət vəsiqəsi ilə yazılmış abituriyentlər imtahan binasına buraxılmayacaqlar!”

# Bakıda ər-arvadla icra məmurları arasında kütləvi dava

**Bakıda vətəndaşlarla icra məmurları arasında kütləvi dava olub. Musavat.com-un əldə etdiyi məlumata görə hadisə bir neçə gün əvvəl Bakı Apelyasiya Məhkəməsinin həyətində baş verib. Dava zamanı tərəflər müxtəlif bədən xəsarətləri alıblar.**

Dava məhkəmə prosesindən sonra baş verib. Səbəb isə vətəndaşlar Zaur Məmmədov və arvadı Mehriban Məmmədovanın məhkəmə prosesinin gedişatından narazı olması, bundan sonra tərəflər arasında yaranan mübahisə olub. Ətrafdakıların müdaxiləsi ilə tərəflər sakitləşdirilib. Davada Bakı Apelyasiya Məhkəməsi üzrə icra şöbəsinin 3-cü dərəcəli ədliyyə qulluqçusu, icra məmuru Faiq Əkbərov və bir neçə icra məmuru iştirak edib.

Daha sonra hər iki tərəf polisə müraciət edib. Ər-arvad polisə müraciət edərək Bakı Apelyasiya məhkəməsinin həyətində icra məmurları tərəfindən döyüldüklərini bildiriblər. Elə həmin gün Faiq Əkbərov da polisə müraciət edərək həmin ər-arvad tərəfindən döyüldüyünü deyib.

**Hadisə ilə bağlı Yasamal Rayon Polis İdarəsinin 28-ci Polis Bölməsində araşdırma aparılır.**

❑ **İlkin MURADOV**

# Gürcüstandan diri heyvan idxalına məhdudiyyət qoyuldu

**Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (BEB) 8 fevral tarixli məlumatına əsasən, Gürcüstanın Tbilisi şəhəri yaxınlığında yerləşən Varketili ərazisində xırdabuynuzlu heyvanlar arasında taun xəstəliyi qeydə alınıb.**

Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətindən virtualaz.org-a verilən xəbərə görə, Azərbaycan ərazisinin başqa dövlətlərdən keçə biləcək yoluxucu və ekzotik xəstəliklərdən qorunması məqsədi ilə taun xəstəliyinin qeydə alındığı Gürcüstanın Varketili ərazisindən və risk zonasına daxil olan ərazilərdən diri iribuynuzlu və xırdabuynuzlu heyvanların idxalına müvəqqəti məhdudiyyət qoyulmasına zərurət yaranıb.

Bununla əlaqədar, “Baytarlıq haqqında” qanunun 8.1.7-ci maddəsinə əsasən Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin 2016-cı il 11 fevral tarixli 04 nömrəli əmrinə uyğun olaraq Gürcüstanın Varketili ərazisindən və risk zonasına daxil olan ərazilərdən diri iribuynuzlu və xırdabuynuzlu heyvanların idxalına müvəqqəti məhdudiyyət qoyulub.

Taun xəstəliyinin ölkəmizin ərazisinə keçməsinin qarşısını almaq məqsədi ilə zəruri tədbirlərin görülməsi üçün “Baytarlıq haqqında” qanunun 8.1.7-ci və 14-cü maddələrinin müddəalarını nəzərə alaraq müvafiq tədbirlərin görülməsi üçün Dövlət Gömrük Komitəsinə müraciət olunub.

YENİ MÜSAVAT
N 34 (6355) 13 fevral 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Tofiq Yaqublu və İlqar Məmmədov məcburi qaydada Şəkiyə aparılacaq?

**Fevralın 25-də Şəki Apelyasiya Məhkəməsində vicdan məhbusları - Müsavat başqanının müavini Tofiq Yaqublu və Real Vətəndaş Hərəkatının sədri İlqar Məmmədovun apelyasiya şikayətlərinə təkrar baxılacaq.**



**Tofiq Yaqublunun qızı, Müsavatın Məclis üzvü Nigar Yaqublu** "Bastainfo"nun əməkdaşı ilə söhbətində bildirib ki, vicdan məhbuslarının məhkəmədə iştirak üçün Şəkiyə etap olunacaqları haqda qeyri-rəsmi məlumat alıblar: "Hər iki məhbus Apelyasiya məhkəməsinə ərizə ilə müraciət edərək onların iştirakı olmadan məhkəmə prosesinin keçirilməsini istəyiblər. Bir halda ki, özləri getmək istəmir, onları niye məcburi aparırlar?"

**Tofiq Yaqublunun vəkili Nemət Kərimli** bildirib ki, vicdan məhbusları məhkəmədən ədalətli qərar gözləmirlər və Şəki Apelyasiya Məhkəməsi onların müraciətlərini nəzərə alaraq, iştirakları olmadan işə baxa bilər.

Qeyd edək ki, Şəki Apelyasiya Məhkəməsi artıq bir dəfə bu iş üzrə əsassız qərar çıxarıb. Lakin Ali Məhkəmə həmin qərarı ləğv etsə də, işi yenidən Şəki Apelyasiya Məhkəməsinə qaytarıb. Müdafiə tərəfi bildirir ki, Ali Məhkəmənin işi geri qaytarmaqda məqsədi vaxtı uzatmaq və Avropa Məhkəməsinə şikayətin göndərilməsini mümkün qədər yubatmaqdır.

# YAP-çı deputat Ziyad Səmədzadəyə qarşı çıxdı

## Musa Quliyev: "Bu qanun niyə Azərbaycan dilində yazılmayıb?"

**Cümə günü Milli Məclisin müzakirəsinə çıxarılan "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" qanun layihəsi birmənalı qarşılanmayıb. Komitə sədri Ziyad Səmədzadə layihə barədə məlumat verərək bildirib ki, daxili bazarın qorunması üçün bu qanunun qəbulu zəruridir.**



Ziyad Səmədzadə

Müzakirələr zamanı isə deputatlar qanun layihəsinə tənqidi yanaşıblar. **Deputat Çingiz Qənizadə** təqdim olunan qanunun qəbul olunmasının qəti əleyhinə olduğunu bildirərək deyib ki, ölkə prezidenti sahibkarların vəziyyətinin yüngülləşdirilməsi üçün addımlar atır, amma eyni zamanda iş adamlrına problemlər yarada biləcək belə qanun layihələri hazırlanıb bura göndərirlər: "Xahiş edirəm ki, birinci oxunuşdan sonra bu qanun layihəsi ilə bağlı ciddi araşdırmalar aparılsın".

**Deputat Zahid Oruc** isə daxili bazarı qorumağa çağırıb: "Ancaq əgər doğrudan da ölkədə olmayan və bahalığa səbəb ola biləcək ucuz malın idxalının qarşısının alınması halı varsa, bununla bağlı düzəlişlər etməliyik".

**Deputat Musa Quliyev** də daxili istehsalı qorumaq üçün addımlar atmağı zəruri sayıb: "Hörmətli akademik Ziyad müəllim qanunu təqdim edərkən onu kifayət qədər əsaslandırmadı. Burda hamı akademik deyil. Əgər bu qanunun dilini millət vəkilləri başa düşə bilmirsə, onu sahibkarlar necə anlayacaq? Bu qanun niyə Azərbaycan dilində yazılmayıb? Aydınlaşdırsınlar, görək, qanun sahibkarlar üçün yazılıb, yoxsa hansısa müəssisələr üçün? Müəssisələr üçün yazılıbsa, bura gəlməsinə ehtiyac yox idi.Bu qanun ilk növbədə tam Azərbaycan dilinə tərcümə olunmalıdır. Cənab prezident ortaya iradə qoyub ki, kiçik və orta sahibkarlığı inkişaf etdirməliyik. Belə olan təqdirdə biz millət vəkilləri də kifayət qədər ehtiyatlı, diqqətli olmalıyıq. Bu qanunun bizim üçün nə qədər zərərli olacağını şəxsən mən özüm üçün aydınlaşdıra bilməmişəm". **M.Quliyev ardınca suallar verdi:** "Bilmək istəyirəm, bu kateqoriyalı mallar hansılardır və ölkəyə daxil olan malların gömrükdə aylarla yoxlanılması zamanı onlara görə sahibkarlar haqq ödəyəcəkmi?"

Digər deputatlar da qanunun çox çətin dildə yazılmasına etiraz edib və M.Quliyevin tənqidlərini bölüşüblər.

**Deputat Aydın Hüseynov** da deyib ki, qanun təkcə mütəxəssislər üçün hazırlanmır: "Məsələn, antidempiq əvəzinə, bazara ucuz mallarla doldurulması adını qoya bilərik".

**Deputat Vahid Əhmədov** bildirib ki, bu qanunun qorunmasında əsas məqsəd daxili bazarı qorumaqdır: "Ona görə də bu qanun ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Düzdür, dili ilə bağlı problemlər var, digər oxunuşlarda bu məsələyə baxmaq olar". V.Əhmədov əlavə etdi ki, bu gün sahibkarlar ölkəyə mal gətirməyə çətinlik çəkir: "Azərbaycana gətirilən malın üzərinə əlavə 40 faizə yaxın dəyər tətbiq olunur. Ona görə də gömrük rüsumlarının faizinə təcili şəkildə baxılmalıdır. Ona görə də mən Azərbaycan hökumətinə təklif edərdim ki, ölkədə ciddi çətinliklərin yaranmaması üçün təcili şəkildə gömrük rüsumlarına baxılsın".

**Z.Səmədzadə tənqidlərin qarşılığında bildirib ki, bizim qanun layihəsinə düzəliş etməyə heç bir mənəvi hüququmuz yoxdur:** "Çünki layihə cənab prezidentdən gəlib". Amma komitə sədri tərcümə zamanı qanunun dilində yaranan mürəkkəbliyi etiraf edib müvafiq qurumlarla bu barədə müzakirə aparılacağını vurğulayıb.

"İqtisadi böhranla bağlı kompleks tədbirlər keçirilmədikcə, pərakəndə qanunların qəbulu işimizi yüngülləşdirməyəcək".

Bu sözləri isə **deputat Fazil Mustafa** "Lisenziyalar və icazələrin verilməsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib. O qeyd edib ki, bu yaxınlarda 50 mindən yuxarı əmanətlərin ölkədən çıxarılmasına dair 20 faiz vergi tutulması ilə bağlı "Valyuta tənzimi haqqında"qanuna dəyişiklik tələm-tələsik qəbul edildi. "Bu isə təbii ki, problemlər yaratdı. Tələm-tələsik olduğuna görə Milli Məclis dəyişikliyi qəbul etdi. Məlumat aldıq ki, prezident sənədi təsdiq etmədiyi üçün qüvvədən düşəcək. Tələsikliyin qarşısını almaq üçün islahatları ümumi koordinasiya edən qurum yaradılmalıdır. Görünür bunu prezidentin iqtisadi məsələlər üzrə köməkçisi üzərinə götürür. Bu gün lisenziya və icazələrin verilməsini ASAN Xidmət modelinə həvalə edirik. Amma ASAN Xidmət bunun öhdəsindən gələ biləcək səviyyədə deyil. Çünki bununla bağlı müvafiq qurumun rəyi tələb olunur. Yenə də həmin qurumlara yenidən müraciət etməli olursan və əngəllər yaranır. Bunu düşünmək lazımdır". F.Mustafa qeyd edib ki, ölkədə inhisarçılıq, defakto mövcud olacağı müddətdə lisenziya almış şəxslərin normal fəaliyyətinə mane olacaqlar.

"Bu, əsas problemdir. İnhisarçılığın qarşısı alınmalır. Bu müddəalar nəzərə alınmasa, "Lisenziyalar və icazələrin verilməsi haqqında" Qanun da işləməyən qanunlardan olacaq".

❑ **E.PAŞASOY**



# "İlhamə kimiləri Azərbaycan incəsənətini, mədəniyyətini və əxlaqını məhv ediblər"

## Aslan İsmayılov: "Bığıburma kişilər ona elə təriflər deyirdilər ki, adam az qalırdı yerə girsin"



**Tanınmış vəkil Aslan İsmayılov müğənni İlhamə Quliyevanın Bakı Şəhər Prokurorluğu tərəfindən dindirilməsinə münasibət bildirib. Hüquqşünas bu cür məsələlərdə mətbuatın, ictimai qınağın böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb:**

"Bu, gələcək ilhamələrə də dərs olmalıdır. Bilməlidirlər ki, bu gün onları "qısqırdıb" ora-bura hücum çəkdirənlər sabah arxasından çəkilib onları daş-qalaq edəcəklər. Və belə də olmalıdır. Çünki İlhamə kimiləri Azərbaycan incəsənətini, mədəniyyətini və əxlaqını məhv ediblər. Onlar telekanalları əllərində bayraq edərək həmişə qız-gəlinlərimizə təbliğ edirlər ki, abırlı-həyalı olmaq sərfəli deyil, İlhamə kimi olmaq lazımdır ki, istədiyini edəsən, pulun-paran olsun.

Bütün bunların sonu olub-olmayacağı da ancaq sizdən, məndən, xalqdan asılıdır. İctimai qınaq olmayan yerdə İlhamələr yenə olacaq, hətta ondan betərləri də".

**Hüquqşünas efirlərdə müğənniyə yaltaqlanan şəxslərin ikrah hiss doğurduğunu deyib:**

"Telekanallarda az qala onun əlindən öpürdülər. Yekə, bığıburma kişilər ona elə təriflər deyirdilər ki, adam az qalırdı yerə girsin".

**Aslan İsmayılov bir neçə gün bundan əvvəl müğənni barəsində səsləndirdiyi sərt, tənqidi fikirlərə görə hər hansı təqib və ya təzyiqlə üzləşməşdiyini bildirib:**

"Əslə istəmirəm ki, ötən çıxışımı da İlhamə ilə bağlı olduğunu fikirləşsinlər. Ona görə ki, İlhamənin kim və nəçi olduğu hamıya, o cümlədən mənə də bəllidir. Mənim sözüm ona yox, İlhaməni o səviyyəyə çatdırıb bu millətə "xış" edənlərə idi. İlhamə heç kimdir! Nə savadı, sənəti, nə də cəsarəti ilə tele-kanallarda at oynatmağa layiq deyildi!

Bu gün Azərbaycanda incəsənət sahəsində bütün dünyanın, o cümlədən xalqımızın tanıdığı Zeynəb Xanlarova var. Amma bu günədək heç kim, heç vaxt Z.Xanlarovanın onun kimi, o cür hikkəli danışdığını görməyib.

İlhaməni bu cür edən onun arxasında duranlardır. Mənim dediyim o cür sərt, tənqidi ifadələr onlara ünvanlanmışdı və demişdim ki, İlhamənin ipini çəkin.

Səsləndirdiyim fikirlərə görə mənə qarşı heç bir təqib, təzyiq olmadı. Bunu tam səmimi deyirəm, mənə bir kəlmə belə söz deyən olmadı".

Xatırladaq ki, müğənni İlhamə Quliyevanın həbs etdirdiyi köməkçisi Mehriban Hüseynovanın ictimailəşdirdiyi fakt və ittihamlar böyük rezonans doğurub. Hazırda Bakı İstintaq Təcridxanasında saxlanılan M.Hüseynova redaksiyamıza ünvanladığı məktublarında İlhamə Quliyeva tərəfindən şəxsiyyətinin alçaldığını, işgəncələrə, hədə-qorxular məruz qaldığını vurğulayıb. Bununla əlaqədar olaraq tanınmış hüquqşünas Aslan İsmayılov hüquq-mühafizə orqanlarına səslənərək köməkçinin göstərdiyi, irəli sürdüyü bütün dəlillərin dərindən araşdırılmasını, ciddi şəkildə yoxlanılmasını istəmişdi.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 34 (6355) 13 fevral 2016

**Dünən Gürcüstanın müstəqillik tarixində ilk dəfə olaraq 4 NATO gəmisi Batumi limanına (Acarıstan) yan alıb. Bu barədə Acarıstan muxtar hökumətinin başçısı Arçil Xabadze jurnalistlərə açıqlamasında deyib.**

# NATO gəmiləri ilk dəfə Batumi limanında - Azərbaycanın "Qərb qapısı" nəzarətə götürülür

## Gürcüstanla birgə təlimlər planlaşdıran Alyans bununla bölgənin strateji əhəmiyyətli kəmər və nəqliyyat dəhlizlərini də zəmanət altına alacağı ilə bağlı Rusiyaya açıq mesaj verdi, Kremlin cavabı nə olacaq?..

**"Bu, ilk haldır ki, limanımıza belə böyük ekipajlı gəmilər daxil olub. NATO gəmilərinin gəlişi çərçivəsində bir sıra görüşlər, mədəni tədbirlər, birgə təlimlər planlaşdırılır. Bu hadisə bizim NATO ilə dərindən və sıx əməkdaşlıq eləmək istəyimizi təsdiq edir" - bildirib Xabadze.**

Qeyd edək ki, Alyans gəmilərinin gəlişi ilə bağlı təntənəli mərasim düzənlənib. Gəmilər fevralın 15-dək limanda qalacaq. Ekipaj üzvləri şəhərə çıxacaq, onun görməli yerləri ilə tanış olacaqlar. "İmedi" telekanalının məlumatına görə, şənbə günü Batumiyə rəsmi səfərlə kontr-admiral Cocio Latsio gələcək...

***

NATO hərbi gəmilərinin Alyansa üzvlüyün cəmi bir addımlığında olan Gürcüstana gəlişi əlbəttə ki, regiondakı geosiyasi durum baxımından yetərincə ciddi hadisədir. Bu, heç şübhəsiz, Qərbin, ABŞ-ın Gürcüstanın ələlxüsus da Rusiyadan müstəqilliyinə, suverenliyinə və Qərbyönlü inteqrasiyaya verdiyi önəmin təzahürüdür.

Bundan az öncə ABŞ-ın Qara dənizdə möhkəmlənmək üçün hərəkətə keçdiyi haqda məlumat yayılmışdı. Öz növbəsində NATO bu arada Qara dənizdə özünün yeni siyasətini elan edib. ABŞ Dövlət Departamentinin rəsmi saytında bununla bağlı yerləşdirilən materialda Birləşmiş Ştatların Gürcüstanın təhlükəsizliyinə dəstək məsələsi də yer alıb.

Göründüyü kimi, Alyans yeni siyasəti çərçivəsində artıq hərəkə keçib. Bu da təəccüblü deyil. Çünki son zamanlar Rusiya regionda və onun ətrafında hərbi cəhətdən xeyli fəallaşıb, bir neçə gün öncə isə Qara dənizdə və Xəzər hövzəsində geniş miqyaslı hərbi təlimlərə başlayıb. Bu isə Qərbin bölgədəki maraqlarına, Gürcüstanla Azərbaycanın təhlükəsizliyinə, eyni zamanda Gürcüstandan keçməklə Qərbə doğru uzanan strateji əhəmiyyətli kəmərlər və nəqliyyat dəhlizlərinə, o cümlədən yekunlaşmaqda olan Bakı-Tiflis-Qars dəmiryoluna, TANAP-a açıq təhdiddir, güc nümayişidir.

NATO gəmilərinin gəlişini bu mənada gücə qarşı operativ güc nümayişi də saymaq mümkündür. Bundan əlavə,




Gürcüstan Azərbaycan üçün yeganə "Qərb qapısı" olduğundan, olayı Azərbaycana da xoşməramlı bir mesaj saymaq olar.

Bu yerdə xatırladaq ki, ötən il ABŞ Senatının qəbul elədiyi sənəddə Gürcüstan, Ukrayna, Moldova ABŞ-ın NATO-dan kənar müttəfiqləri elan olunub, Azərbaycana isə özünün təhlükəsizliyini möhkəmlətmək üçün Amerikadan hərbi kömək istəmək hüququ tanınıb.

***

NATO gəmilərinin Batum limanına gəlişi Alyansın əsas cənub cinahı sayılan qardaş Türkiyənin də maraqlarına tam cavab verir, onun Rusiya qarşısında regiondakı nüfuzu və önəmini artırır. Həm də o səbəbə ki, Ankara neçə vaxtdır Azərbaycan və Gürcüstanla birgə hərbi ittifaqın yaradılmasına çalışır.

Bu xüsusda nüfuzlu "Foreign Affairs" nəşrinin qeydlərinə bir daha diqqət etməyə dəyər. Nəşr az öncə yazmışdı ki, Türkiyə Rusiyanı Qafqazdan çıxarmaq üçün müharibəyə hazırlaşır və Birləşmiş Ştatlardan bundan ötrü zəmanət gözləyir". Sitat: "Hər şeydən əvvəl bu həmlə boğazlarda və Dağlıq Qarabağ münaqişəsində təşəbbüsü ələ almaq məqsədi daşıyır. Bundan ötrü Qarabağda ölüm-dirim müharibəsi başlaya bilər - hansı ki, artıq belə bir vəziyyət yetişib".

"Foreign Affairs" ardınca iddia eləmişdi ki, prezident Ərdoğan Türkiyə-Gürcüstan-Azərbaycan hərbi ittifaqını gücləndirəcək: "Bu ittifaq Rusiyanın tamamən Güney Qafqazdan sıxışdırılıb çıxarılmasına, dolayısı ilə NATO-nun bölgəni öz təsir dairəsinə almasına gətirə bilər". Nəşr Ərdoğanın fevralın 18-nə planlaşdırılan Bakı səfərində bu və digər mühüm məsələlərin müzakirə ediləcəyini də təxmin edib.

***

**NATO gəmilərinin son de-marşı şübhəsiz ki, Rusiya tərəfindən, yumşaq desək, narazılıqla qarşılanacaq. Yada salaq ki, ötən il Tiflisdə NATO-nun təlim mərkəzinin açılışına rəsmi Moskva çox qıcıqlı reaksiya vermiş, bunu "Qərbin bölgəni qarışdırmaq yönündə təxribatçı addımı" adlandırmışdı.**

❑ **Analitik xidmət**

# "ABŞ Cənubi Qafqaza həyatı maraqlarının olduğu bölgə kimi baxır"

## Klepperin fikirləri müzakirələrə səbəb olub

**ABŞ Milli Kəşfiyyat Agentliyinin direktoru Ceyms Klepper Konqresin kəşfiyyat komitəsindəki məruzəsindən sonra Amerikanın Cənubi Qafqazla bağlı iddialarından geri çəkiləcəyi rəyi ortaya çıxıb.**

ABŞ-ın iddiasından geri çəkilə biləcəyinə əsas kimi, Yaxın Şərq göstərilir. Hazırda Amerika üçün Cənubi Qafqazın yox, Yaxın Şərqin daha çox strateji əhəmiyyət daşıdığı bildirilir. Bəzi ekspertlər hesab edirlər ki, bu məsələlər reallaşarsa, Gürcüstan yenidən Rusiyaya meyllənə bilər. Gürcülər arasında Qərbdən çox, Rusiyaya yaxınlaşmağı müdafiə edənlərin çoxluğu heç kəsə sirr deyil. Bunu son illərdə ölkədaxilindəki Qərbə inteqrasiya ilə bağlı aparılan siyasətin uğursuzluğu ilə izah etmək mümkündür.

**Cənubi Qafqazla bağlı Qərbin siyasəti dəyişərsə, Ermənistanın Rusiyanın himayəsi altında olduğunu düşünsək, qalır, Azərbaycanın hansı siyasəti yürüdəcəyi. Ekspertlər bildirirlər ki, ABŞ Cənubi Qafqazdan geri çəkilərsə, bu, ölkəmizdəki demokratikləşmə prosesinə ciddi təsir edəcək. Dağlıq Qarabağ münaqişəsinə də təsirsiz ötüşməyəcəyi istisna olunmur.**

**Politoloq Şahin Cəfərli** bildirdi ki, Klepperin çıxışında Cənubi Qafqazla bağlı deyilən hissələr yoxdur: "Ceyms Klepperin ABŞ-ın Cənubi Qafqazı Rusiyanın maraq dairəsi saydığı barədə fikirləri yoxdur. Klepper Gürcüstanın Rusiyanın təzyiqləri nəticəsində avroatlantik strukturlara inteqrasiyasının yavaşlayacağı və ya dayandıra biləcəyi barədə ehtimal səsləndirərək, bu ölkənin Qərbə inteqrasiyasının yavaş templə getməsinin Gürcüstan elitası və ictimaiyyətində məyusluq yaratdığını bildirib. O, Azərbaycanın Dağlıq Qarabağdan imtina etmək fikrində olmadığını, Ermənistanın isə işğal olunmuş əraziləri tərk etmək istəmədiyini söyləyərək bu amillərin siyasi həlli çətinləşdirdiyini və iki ölkə arasında gərginliyin davam edəcəyini də proqnozlaşdırıb. Hesabatın adı "Dünyadakı təhlükələrin qiymətləndirilməsi" adlanır və bütün bunlar - yəni həm Moskvanın Gürcüstanı avroatlantik inteqrasiyadan vaz keçirmək üçün bu ölkəyə təzyiqlərini gücləndirməsi, həm də Dağlıq Qarabağ münaqişəsinin davam etməsi dünyadakı təhlükələr sırasında göstərilib. Ümumən hesabatda Rusiya ABŞ-ın təhlükəsizliyinə əsas təhdid mənbələrindən biri kimi qeyd olunub. Hesabatda deyilir ki, Rusiyanın öz qonşularına qarşı yönəlmiş aqressiv siyasəti, onları Avrasiya İttifaqına cəlb etmək üçün təzyiqləri artırması və gizli müharibə taktikası təhdid istiqamətlərindən biridir".




**Ş.Cəfərli ABŞ-ın Cənubi Qafqaza öz həyatı maraqlarının olduğu bölgə kimi baxmadığı qənaətindədir**: "Konkret Cənubi Qafqaza gəldikdə, qeyd etməliyik ki, ABŞ bu bölgəyə öz həyati maraqlarının olduğu region kimi baxmır. Düzdür, bölgəmizdə Gürcüstana yanaşma fərqlidir və qonşu ölkə avrointeqrasiya istiqamətində ciddi addımlar atır. Lakin Qərb hələlik bu addımların Rusiyanın aqressiyasına səbəb olmayacaq səviyyədə gerçəkləşməsinə diqqət yetirir. Çünki Rusiya qoşunları hazırda paytaxt Tiflisin təxminən 100 kilometrliyində dayanıb və onlar hərəkətə keçəcəyi təqdirdə Gürcüstanın operativ şəkildə müdafiə olunması üçün hər hansı beynəlxalq mexanizm və beynəlxalq təminat yoxdur. Bu səbəblə, Gürcüstanın gözləntilərinin əksinə olaraq, NATO-nun iyul ayında keçiriləcək Varşava sammitində bu ölkəyə üzvlük üçün Fəaliyyət Planı verilməyəcək. Gürcüstana səbirli olmaq və üzvlük üçün hazırlıqları davam etdirmək tövsiyə edilib. Ona görə ki, Qərb 2008-ci ilin avqust hadisələrinin təkrarlanmasını və Ukraynadan sonra postsovet məkanında Rusiya ilə daha bir toqquşma istiqaməti yaranmasını istəmir, ən azı bu mərhələdə. Eyni zamanda, Qərb paytaxtlarında belə bir fikir var ki, Rusiyanı eyni anda bütün istiqamətlərdə nokauta salaraq onun qürurunu sındırmaq doğru olmaz. Hər halda Rusiya böyük nüvə arsenalına sahib nəhəng dövlətdir və onun da maraqları nəzərə alınmalıdır. Hazırkı mərhələdə postsovet məkanında Qərb üçün prioritet istiqamət Ukraynadır. Cənubi Qafqazdan fərqli olaraq, Ukraynanın Qərb üçün önəmini artıran mühüm geostrateji amillər mövcuddur. Ukrayna Avropa İttifaqının və NATO-nun 4 üzvü ilə həmsərhəddir və bu ölkədə baş verənlərin avroatlantik təhlükəsizliyə bilavasitə təsiri var. Bundan başqa, Ukraynanın Rusiyanın təsir dairəsindən çıxarılaraq Avropaya inteqrasiyası Qərb üçün önəmlidir. Çünki bu halda Kremlin neoimperial planlarının reallaşması mümkün deyil. Hazırda Vaşinqton NATO-nun şərq cinahını möhkəmləndirmək istiqamətində siyasət aparır və Avropada öz hərbi mövcudiyyətini yavaş-yavaş artırır. Xüsusən Rusiya ilə həmsərhəd olan NATO ölkələrinin ərazisində ittifaqın hərbi infrastrukturu gücləndirilir ki, bunun özü Rusiyanı ciddi şəkildə qıcıqlandıran hadisədir. Cənubi Qafqazda Rusiyaya qarşı yeni bir cəbhə açmaq hələ ki, Vaşinqtonun planında yoxdur".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 34 (6355) 13 fevral 2016

## Tanınmış iş adamına qayınanasından müdhiş ittihamlar

**Beynəlxalq Bankın sabiq rəhbəri, hazırda həbsdə olan Cahangir Hacıyevin daha bir maliyyə xəyanəti üzə çıxıb. Məlum olub ki, məhbəsdəki bankir manatın birinci devalvasiyasından 2 gün əvvəl Beynəlxalq Bank üzərindən Kanada və Türkiyəyə 100 milyon dollardan artıq vəsaitin çıxarılmasına şərait yaradıb.**




# "Bizim market"in rəhbəri ölkədən 100 milyon dollar çıxarıb - şok təfsilat

## Pullar Cahangir Hacıyev vasitəsilə Beynəlxalq Bank üzərindən Kanada və Türkiyəyə köçürülüb; Xanımbacı İsmayılova: "Rasim Salmanov 11 milyon dollara Türkiyə "Zorlu" ticarət mərkəzində ev, Kanadada torpaq sahələri, "Ferrari" markalı maşın və digər əmlaklar alıb"; biznesmen vergidən yayınmaq üçün hansı üsulu seçib?

Maliyyə xəyanətinin şok təfsilatı haqda redaksiyamıza ilginc məlumatlar daxil olub. Vergidən yayındırılmaqla qazanılan böyük məbləğdə pul isə "Maşın bazarı"nın sahibi, "Bizim market" mağazalar şəbəkəsinin ortaqlarından olan Rasim Salmanova məxsus imiş. Gizli pul ötürmə əməliyyatının ilginc detallarını prezident İlham Əliyevə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevə və digər səlahiyyət sahiblərinə ünvanladığı məktubda R.Salmanovun qaynanası Xanımbacı Qasım qızı İsmayılova qeyd edib.

Redaksiyamıza daxil olan məktubun surətində digər qanunsuzluqlar haqda da müfəssəl məlumat verilir.

### "Adımdan istifadə edib nəvəmi tutdurdu"

Xanımbacı İsmayılovanın yazdıqlarından aydın olur ki, kürəkəni Rasim Salmanov onun adından 17 dekabr 2015-ci il Bakı Şəhər Baş Polis İdarəsinə şikayət ərizəsi verib. Ərizə əsasında, X.İsmayılovanın nəvəsi Sahib Arif oğlu Quliyev barəsində dələduzluq maddəsi ilə cinayət işi başlanıb və sonuncu 1 fevral 2016-cı ildə tutulub. Xətai Rayon Məhkəməsinin qərarı ilə barəsində 3 ay müddətində həbs-qətimkan tədbiri seçilib. Hazırda 3 saylı İstintaq Təcridxanasında saxlanılır: "Rasim Salmanova verdiyim etibarnaməni ləğv etdirdim ki, adımdan hər hansı bir müraciət edə bilməsin. Həmin etibarnamənin ləğv edilməsi haqda sənədi də istintaqa təqdim etdim".

### Beynəlxalq Bankdakı araşdırmalar böyük cinayətləri üzə çıxarıb!!!

Xanımbacı İsmayılova "Bizim market"lər şəbəkəsinin rəsmi sahibidir. Yazır ki, biznesini bilavasitə kürəkəni Rasim Salmanov idarə edir. Kürəkəni ailəyə çatacaq milyonlarla pulu müxtəlif vasitələrlə Türkiyə Respublikasına, oradan da Kanadaya ötürüb.

Bu faktların üstü Beynəlxalq Bankdakı araşdırmalar zamanı açılıb. Bundan sonra Rasim Salmanov ailəni neytrallaşdırmaq qərarına gəlib: "Əvvəlcə məsələni zorakılıq və öz üsulları ilə həll etməyə çalışdı. Mənə və ailəmə hədə-qorxu gəldi. Bir gün də xəbər çıxdı ki, Rasim Salmanov bizim ailəni izlədirmiş".

### Nardaran hadisələri ailənin izləndiyini ortaya çıxardı!

Məktub müəllifi yazır ki, Nardaranda məlum hadisələr baş verəndən sonra DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi (BMCMİ) gücləndirilmiş iş rejiminə keçib. Həmin günlərdə BMCMİ əməkdaşları idarə ətrafında şübhəli şəxsləri müşahidə ediblər. Bu isə R.Salmanovun hüquq-mühafizə orqanlarının səlahiyyətlərini mənimsədiyini ortaya çıxarıb: "Nəvəm Sahib Quliyevin və ailəsinin yaşadığı evi BMCMİ-nin yanındadır. Rasim Salmanov nəvəmin evini güddürüb. Bu hadisə Nardaran hadisələri dövründə olduğuna görə idarənin ətrafında güclü nəzarət olub. Rasim Salmanovun adamları saatlarla Sahib Quliyevin mənzilini güdən zaman idarə əməkdaşları bu haldan şübhələnib. Həmin adamları tutaraq idarəyə aparıblar. Tutulanlar etiraf ediblər ki, Rasim Salmanov onlara Quliyevlər ailəsini güdmək və lazım olsa, tədbir görmək sifarişi verib. Adamlar onlara bunun müqabilində pul ödəndiyini də deyib. İdarədə araşdırma gedən zaman Rasim Salmanov Sahib Quliyevin evinə gəlib yalvarıb, səhv etdiyini boynuna alıb. Quliyevlər ailəsi bunu nəzərə alaraq BMCMİ-də ondan şikayətçi olmadılar və iş bağlandı".

Xanımbacı İsmayılova yazır ki, R.Salmanov bundan sonra Sahib Quliyevin şərlənərək həbs olunmasına nail olub: "Guya 1989-cu il təvəllüdlü Sahib Quliyev dələduzluq yolu ilə onun milyonlarla pulunu mənimsəyib".

### Akif Çovdarovun üsullarından istifadə etməklə...

Xanımbacı İsmayılova bu halın MTN üsulundan, Akif Çovdarov üsulundan fərqlənmədiyini yazır: "Rasim Salmanovun havadarları sanki insanları faşist Almaniyasındakı kimi neytrallaşdırmaq, öz haqlarını müdafiə etməkdən çəkindirmək istəyirlər. Rasim Salmanovun ailə üzvləri, həyat yoldaşı dəbdəbəli həyat tərzi sürürlər. İlin 9 ayını xarici ölkələrdə Azərbaycanın dövlət büdcəsindən yayındırdıqları milyonlar hesabına lüks hotellərdə istirahət edirlər. Dövlət orqanları Rasim Salmanov və onun ailəsinə məxsus mənzillərdə axtarış aparsalar, dövlət büdcəmiz əsaslı bir hissəsi dolar".

### 100 milyonlarla dolların hesabını Rasim Salmanovdan soran yoxdur

X.İsmayılova yazır ki, ölkədən qanunsuz olaraq çıxarılan 100 milyonlarla dolların hesabını R.Salmanovdan soran yoxdur: "Rasim Salmanov manatının birinci devalvasiyasından iki gün əvvəl, 19.02.2015-ci il tarixdə və ondan sonrakı tarixlərdə külli miqdarda maliyyə vəsaitlərini Azərbaycandan çıxarmağa nail olub. Rasim Salmanov bütün bu maliyyə fırıldaqlarını Beynəlxalq Bankın rəhbəri, hazırda həbsdə olan Cahangir Hacıyevin köməkliyi ilə edib. Azərbaycanda qazanılan və ölkədən çıxarılan pullara Türkiyə və Kanadada müxtəlif əmlaklar alıb. Rasim Salmanov 11 milyon dollara İstanbulda, "Zorlu" Ticarət Mərkəzində ev, Kanadanın Vankuver şəhərində dəyəri 100 milyon dollarla ölçülən evlər, çayın qırağında torpaq sahələri, "Ferrari" markalı maşın və sair əmlaklar alıb. Müxtəlif biznes sahələrinə investisiya qoyub. Qeyd etməliyəm ki, "Bizim marketlər" şəbəkəsi rəsmi olaraq mənim adıma olub. Rasim Salmanov mağazalardan gələn gəlirləri vergidən və dövlət büdcəsindən yayındırmaq, külli-miqdarda pulların izini rahatlıqla itirmək üçün əmlaklarını mənim və digər qohumlarının adına keçirib. Hətta "Bizim Marketlər" şəbəkəsinin bank hesabı nəvəm Sahib Quliyevin adına olub. İl ərzində 100 milyon manat pul həmin hesaba oturub. Rasim Salmanov bu yolla dövlət nəzarətindən kənarda qalmağa çalışıb və nəvəmdən özünü müdafiə məqsədi ilə istifadə edib. Sonra onu həbs etdirib".

### "DİN rəhbərliyi işi öz nəzarətlərinə götürsün"

X.İsmayılova yazır ki, Rasim Salmanov bu məsələyə qədər qardaşı Rahib Salmanovu da məhkəmələrə çəkib, hüquq-mühafizə orqanlarına barəsində iddialar verib: "Qardaşına şər-böhtan ataraq külli-miqdarda əmlakları ələ keçirmək istəyir. İstəyirik ki, bu məsələləri daxili işlər naziri Ramil Usubov və Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidov öz nəzarətlərinə götürsünlər. Çünki Rasim Salmanovun ailəmizə qarşı etdiyi qanunsuz hərəkətlər bir daha sübut edir ki, bəzi hüquq-mühafizə orqanları əməkdaşları hələ də Eldar Mahmudovun metodları və Akif Çovdarovun ənənələrini davam etdirirlər".

### İş adamı qayınanasını kor etmək istəyir?

Xanımbacı İsmayılova yazır ki, gözündən əməliyyat olunmalıdır. Amma R.Salmanov öz havadarlarının köməyi ilə onun ölkədən çıxışına qadağa qoydura bilib: "Müalicə üçün Türkiyəyə getməli olduğum halda Rasim Salmanovun sifarişi ilə müstəntiqi Vüqar İsmayılov barəmdə hərəkət məhdudiyyəti qoyub. Rasim Salmanov öz milyonlarından istifadə edib gözümün kor olmasına da nail olmağa çalışır".

**Yazıda adı çəkilən hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.**

❑ **E.HÜSEYNOV**

---

# Bələdiyyələrdən başlamalı - niyə də yox?



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Azərbaycan hökuməti, Mərkəzi Bank manata "süni nəfəs" verməkdə davam edir. Bundan ötrü həm də ölkədəki valyutadəyişmə məntəqələri ləğv edilərək ABŞ dollarının sərbəst satışı yasaqlanıb, bir sıra banklar qapadılıb, başqa bu qəbildən addımlar atılıb və atılmaqdadır. Fəqət, milli valyutamızın durumu yaxşılaşmır. Niyə?**

Çünki iqtisadçı ekspertlərə görə, belə addımlar inzibati xarakterlidir, azad iqtisadiyyat isə inzibati müdaxilələri sevməz. Bu qədər bəsit bir izah. Yeri gəlmişkən, bəyəm Sovet iqtisadiyyatının, ardınca isə SSRİ-nin özünün axırına dövlət səviyyəsində iqtisadiyyata inzibati müdaxilələr, planlı iqtisadiyyat adlı əcaib idarəçilik çıxmadı ki? Çıxdı.

Amma bu acı təcrübə, görünür postsovet ölkələrinin çoxuna, o sırada Azərbaycana dərs olmayıb. Söhbət yalnızca sabitliyin bərqərar olunmasına hesablanmış köhnə və yanlış idarəçilik formasını kosmetik düzəlişlərlə yaşatmaqdan gedir...

Velosipedi təzədən kəşf etməyə isə lüzum yox. İqtisadçı olmağa da gərək yoxdur: nə qədər ki, Azərbaycanda azad bazar qanunları real olaraq işlək hala gəlməyəcək, heç bir iqtisadi möcüzə baş verməyəcək və manat da öz real dəyərinə qovuşmayacaq, onu "süni tənəffüs aparatı" belə, xilas edə bilməyəcək. Deməli, ölkə o vaxtadək yerli və əcnəbi investorlar üçün maraq kəsb etməyəcək, üstəlik, beynəlxalq maliyyə qurumları bizə kreditləri yüksək faizlə verəcək.

Halbuki, məsələn, nefti-qazı olmayan qonşu Gürcüstan belə məbləğləri aşağı faizlərlə alır, ona görə ki, orada iqtisadi-biznes azadlıqları optimal səviyyədə bərqərar edilib, bazar iqtisadiyyatının oturuşması, yerli valyutanın möhkəmliyinin şərti kimi idxalın gücləndirilməsi üçün vacib olan şəffaf və korrupsiyasız idarəçilik də faktiki, təmin olunub. Bəs Azərbaycanda?

Əfsus ki, bu suala hələ ki, pozitiv cavab yoxdur. Manatın ikinci devalvasiyasından keçən müddət iki aya yaxınlaşır, ancaq bizdə iqtisadi-biznes azadlıqlarının, korrupsiya və şəffaflığın səviyyəsinin heç olmasa, Gürcüstandakı kimi olacağına dəlalət edən ümidverici proses müşahidə olunmur. Heç kim özünü aldatmasın.

Bəs nə vaxt müşahidə ediləcək? Əlbəttə ki, iqtisadi islahatların birinci şərti hesab olunan siyasi islahatlara başlananda - o cümlədən hakimiyyət qollarının, xüsusən də məhkəmələrin və qanunverici orqanın müstəqilliyi və legitimliyinin təmin edilməsi yönündə real addımlar atılanda, korrupsiyaya bulaşmamış kadrlar iş başına gətiriləndə. Yenə uzağa getməyək, qonşu Gürcüstan məgər bundan başlanmamışdı?..

Son zamanlar iqtidaryönlü simalar müxalifətin böhranla bağlı təkliflərini az qala lağa qoyurlar, iddia edirlər ki, müxaliflər kəmfürsətlik edib erkən seçkilər mövzusunu ortaya atır. Amma unudurlar ki (bəlkə də qəsdən), dünya təcrübəsində siyasi islahatlarsız uğurlu iqtisadi islahatlara nail olunmasına dair nümunə yoxdur.

Yaxşı, tutaq ki, erkən parlament və ya prezident seçkiləri ağır seçkilərdir, ölkənin sabitliyi üçün təhlükə vəd edir, qarışıqlıq yarana bilər və s. Bəs azad və ədalətli yerli bələdiyyə seçkilərinin təşkilinə nə sözünüz?

Dəniz suyunun dadını bilmək üçün damla yetərlidir. Yəni hökumətin islahat istəyi səmimidirsə, onu elə bələdiyyə seçkilərindən də görmək mümkün olacaq. Zira, azad iqtisadiyyata malik ölkələrdə yerli hakimiyyət korrupsiya yuvaları olan İcra hakimiyyətlərinə yox, çoxdan azad seçkilərlə formalaşan bələdiyyə orqanlarına məxsusdur.

Məsələ (əslində bəla) da ondadır ki, hökumətin nə yaxın 6 ay-1 ilə, nə də yaxın 2-3 ilə heç bir bitkin, çevik, strateji və konkret mərhələlərə bölünmüş hərəkət proqramı yoxdur. Varsa, göstərin. Yoxdursa, onda uzağı, Novruz ərəfəsi manatın üçüncü devalvasiyasını gözləyin.

**Bunu da biz demirik.**

# Moskva müqaviləsi ləğv olarsa...

## Rus deputatlarının müraciəti gündəmdən düşmür; Türkiyədən çox Azərbaycan ictimaiyyəti proseslərdən ciddi narahatdır...

**Rusiya Dövlət Dumasının deputatlarının Rusiya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə arasında 1921-ci ilin 16 martında imzalanmış Moskva müqaviləsinin ləğvi ilə bağlı müraciətləri ətrafındakı söz-söhbətlər qızışır. Onlar prezident Vladimir Putin və xarici işlər naziri Sergey Lavrovdan təkidlə müqaviləyə xitam verilməsini istəyiblər.**

Heç şübhəsiz ki, bütün proseslər Türkiyə-Rusiya münasibətlərinin gərginləşməsindən doğur. Əvvəlcə Dumanın bir qrup deputatının “erməni soyqırımı”nı inkar edənlərin məsuliyyətə cəlb olunmaları ilə bağlı müraciətləri, ardınca isə, Moskva müqaviləsini gündəmə gətirmələri bir çox mətləblərdən xəbər verir.

Bu məsələnin gündəmə gətirilməsi qardaş ölkədən çox, Azərbaycan da narahatçılıq doğurub. Çünki Moskva müqaviləsi birbaşa bizi etkiləyən tarixdir. 1921-ci ildən üzübəri Naxçıvanın Azərbaycanın tərkibində qalmasında ən böyük rolu məhz bu müqavilə oynayıb. Bəlkə də, Moskva müqaviləsi olmasaydı, Naxçıvan da Zəngəzur və digər itirdiyimiz əraziləri taleyini yaşamışdı.

Qeyd edək ki, müqavilə iki ölkə arasında müddətsiz imzalanıb. Eyni zamanda, müqavilə 1921-ci ildən öncə Türkiyə ilə Rusiya, eləcə də, Ermənistan arasında bağlanmış bütün qeyri-hüquqlu müqavilələri ləğv edir. Müqavilənin üçüncü bəndində, yəni Naxçıvan olan bölmədə göstərilir ki, Naxçıvan vilayətinə Azərbaycanın himayəsi altında muxtar status verilir.



**Dilavər Əzimli:**
“Bu müqavilə ləğv oluna bilməz”



**Musa Qasımlı:**
“Müqavilənin ləğvindən Rusiya və Ermənistan itirər”

Bu şərtlə ki, Azərbaycan onu üçüncü dövlətə güzəştə getməyəcək. 1921-ci il 13 oktyabrda bu müqaviləni təsdiq edən Qars müqaviləsi imzalanıb. Bu müqavilədə bir daha Naxçıvanın Azərbaycanın tərkibində muxtar statusu təsdiqlənib.

Rus deputatlarının müraciətləri Rusiya ilə İran arasında XIX əsrdə bağlanmış Gülüstan və Türkmənçay müqavilələrini gündəmə gətirib. Azərbaycan cəmiyyəti daxilindən artıq belə fikirlər səslənir ki, müddətsiz bağlanan Moskva müqaviləsi gündəmə gətirilirsə, o zaman müddəti bitmiş Gülüstan və Türkmənçay müqavilələri ilə bağlı da Azərbaycan deputatları hökumətə müraciət ünvanlasınlar.

Tarixçilərin əksəriyyəti Moskva müqaviləsinin ləğvini real görmürlər. Onlar hesab edirlər ki, Rusiya ilə Türkiyə arasında münasibətlər gərgin olsa da, hər iki ölkədə çoxsaylı rus və türk yaşayır. Eyni zamanda, müqavilənin ləğvi Batumi və Gümrü kimi torpaqların Türkiyəyə qaytarılmasını gündəmə gətirir.

**Tarixçi-alim Dilavər Əzimli** Moskva müqaviləsinin 90 illiyinin Rusiya və Türkiyədə geniş şəkildə qeyd olunduğunu bildirdi: “Bu müqavilə müddətsiz imzalanıb. Hər iki ölkədə müqavilənin 90 illiyi təntənəli şəkildə keçirilib. O zamanlar Türkiyənin gücü olsaydı, müqavilə ya Azərbaycanın tam maraqları çərçivəsində imzalancaqdı, ya da ümumiyyətlə, belə bir müqavilə olmayacaqdı. Qardaş ölkəmiz gücü yetəni etdi. Bu müqavilə ləğv oluna bilməz. Müqavilələr o zaman ləğv olur ki, dünyada yeni proseslər başlayır. Rusiya hazırda Türkiyəni gedən proseslərdə məğlub etməyə çalışır. Ona görə də, belə üsullardan istifadə edir. Türkiyə nəzərə alaq ki, əvvəlki illərin Türkiyəsi deyil. Zaman qardaş ölkəmizin xeyrinə işləyir. Proqnozlar odur ki, 2020-ci illərdən sonra Türkiyə əsas gücə çevriləcək. Artıq Rusiya Türkiyə ilə münasibətləri formalaşdırmaq üçün yollar arayır. Sadəcə, özünü sınmış vəziyyətdə göstərmək istəmir. Yaxşı dərk edirlər ki, münasibətlər gərgin olduqca, çökməyə doğru gedirlər. Türkiyə ağıllı siyasət yeridir. Bu şərtləri nəzərə alsaq, Moskva müqaviləsinin ləğvi mümkünsüzdür”.

Tarixçi Türkmənçay və Gülüstan müqavilələrinin ləğvi məsələsinin qaldırılmasının prosesləri qızışdırmaqdan başqa bir şey olmadığını söylədi. O, hesab edir ki, bunu etməyə heç bir ehtiyac yoxdur".

**Milli Məclisin deputatı, tarix elmlər doktoru Musa Qasımlı** publika.az-a açıqlamasında bildirib ki, Moskva müqaviləsinin ləğvinin gündəmə gətirilməsi Türkiyəyə qarşı təzyiq xarakteri daşıyır: “Müqavilənin ləğvindən Rusiya və Ermənistan itirər. Digər tərəfdən, Rusiya həm də türk ölkəsidir. Burada 30 milyon türk yaşayır. Müharibə Rusiyada daxili milli ziddiyyətləri dərinləşdirər və ölkənin parçalanmasına gətirər. Türkiyədə təqribən 50 min nəfərə qədər rus qadını ailə həyatı qurub Rusiya ənənəsi olan bir dövlətdir. Moskvanın müqavilələri ləğv etməklə bağlı qərarları qəbul edəcəyi real görünmür. Bu, sadəcə, təzyiqdir və müqaviməti sınamaq məqsədi daşıyır. Azərbaycan Rusiya və Türkiyə münasibətlərində etibarlı bir körpüdür. Fikrimcə, Azərbaycan həmişəki kimi, rus-türk münasibətlərdəki gərginliyi zəifləmtməkdə rol oynaya bilər”.

❑ **Cavanşir ABBASLI**

# ABŞ-da seçki marafonunda gözlənilməz nəticələr

## Ağ Evin yeni sahibi kim ola bilər?

**ABŞ-da prezident seçkiləri ilə bağlı keçirilən ilkin praymerizlərin qalibləri dünyanın siyasi analitikləri tərəfindən təəccüblə qarşılanır. Ardıcıl olaraq iki ştatda keçirilən praymerizdə ABŞ siyasi səhnəsində yeni olan adların qalib elan olunması gözlənilməz olub. Belə ki, iki gün öncə Nyu-Hempşirdə keçirilən partiyadaxili seçimlərdə Respublikaçılardan Donald Tramp, Demokratlardan isə Berni Sanders qələbə qazanıb.**

Qeyd edək ki, bu partiyadaxili seçimlərin əsas məqsədi noyabr ayında mübarizə aparacaq iki aparıcı partiyanın namizədlərini müəyyən etməkdir.

Demokratların ən real namizədi olan Hillari Klintona qalib gələn Vermont senatoru Bernie Sanders gözlənilməz qələbəsinin səbəblərindən danışaraq deyib ki, insanlar onu seçməklə real dəyişiklik görmək istəyirlər. Hillari Klinton da məğlubiyyətini etiraf edərək Sandersi təbrik edib.

Demokrat Partiyasının tərəfdarlarının 54,5 faizi Sandersə, 41,2 faizi isə Klintona səs verib. Tramp isə səslərin 31,2 faizini toplayıb, digər respublikaçı namizədlər isə 15 faizdən çox səs toplaya bilməyib. Burada belə bir nəticə çıxır ki, Tramp respublikaçıların əsas namizədidir.

Onu da deyək ki, bu mərhələdə az səs toplayan iki respublikaçı namizəd, Nyu-Cersi ştatının qubernatoru Kris Kristi, “Hewlett-Packard” kompaniyasının keçmiş rəhbəri Karli Fiorina marafonu tərk edib.

ABŞ-ın seçki marafonunun növbəti praymerizinin nəticələrini dəyərləndirən **politoloq Elxan Şahinoğlu** bildirdi ki, ABŞ-da qeyri-adi vəziyyət yaranıb və bu nəticələrə gözlənilməz oldu: “Adətən biz prezident yarışmasında partiyaların tanınmış liderlərinin, konqresmenlərin mübarizəsinin şahidi olurduq. Ancaq indi görürük ki, mübarizədə Demokratlar partiyasından qatı bir solçu irəlidə gedir.

Respublikaçılar Partiyasından isə nə konqresmen olan, nə də siyasi liderlər sırasına daxil olan milyarder Donald Tramp liderliyi ələ almağa çalışır. Bir müddət öncə Demokratlar partiyasında daha çox Hillari Klintonun şansı yüksək idi. Ancaq hələ ki, ilkin səsvermələr keçirilir. Səslərdə dəyişiklik də ola bilər. İndi Donald Trampın və Sandersin reytinqləri yüksək olsa da, sonda partiyada öz tanıdıqları liderlərə dəstək verilməsi ilə bağlı da qərar verilə bilər. Və ya Respublikaçılar partiyası öz ağırlığını Kruzun üzərinə qoya bilər, Demokratlar partiyası isə Hillari Klintonun üzərində dayana bilər və bütün maliyyə bu istiqamətdə xərclənə bilər".



Elxan Şahinoğlu

**Politoloq ABŞ cəmiyyətinin populist fikirlər səsləndirən namizədlərə üstünlük verdiyini, lakin bu nəticələrin hər an dəyişə biləcəyini da vurğuladı:** “Ancaq hər halda indiki vəziyyətə nəzər salsaq görərik ki, cəmiyyətdə daha çox populist ideyalar rəğbət qazanır. Çünki, Donald Trampın ideyaları çox populist idi, insanları bununla cəlb edir. Sanders də solçudur və idarəetmədə hansı addımlar atacağı bəlli deyil. Hillari Klinton yenə pis-yaxşı Amerika cəmiyyətinə bəlli olan bir siyasətçidir, onun hansı addımlar atacağı bəllidir. Ancaq Sanders haqqında fikir qeyri-müəyyəndir. Onun hansı addımlar atacağı bəlli deyil, sadəcə populist şüarlarla özünü tanıtdıra bilir”.

**E.Şahinoğlu Klintonun daha ciddi mübarizəyə hazırlaşacağını və Sandersi geridə qoymağa çalışacağını bildirdi:** “Hələ seçki marafonu başlamamışdan öncə, Respublikaçı namizədlər arasında C.Buşun qardaşının adı çəkilirdi. Lakin debatlar göstərdi ki, o kifayət qədər reytinq qazana bilmədi. Ona görə də, bu namizədlər artıq arxa planda qalıb. Respublikaçılardan Kruz mübarizəsini davam etdirəcək, Demokratlarda isə Klintonla Sandersin vəziyyəti eynidir. Klinton da çalışacaq ki, Sandersi üstələsin”.

Qeyd edək ki, Respublikaçılar prezidentliyə namizədi 18-21 iyul qurultayında, demokratlar 25-28 iyul qurultayında seçəcəklər. ABŞ-da prezident seçkisi isə 2016-cı il noyabrın 8-də keçiriləcək. Bununla Amerika 58-ci prezidentini seçəcək.

❑ **Nərgiz LİFTİYEVA**



# Sahibkarlar vergidə üzləşdikləri qanunsuzluqlardan prezidentə yazdılar

## Vergilər Nazirliyi prezident fərmanını və özünün kollegiya qərarını tanımır

**Manatın devalvasiyası daxili istehsalın gücləndirilməsini diktə edir. Ölkə üzləşdiyi sosial-iqtisadi vəziyyətdən sahibkarların çiyinləri üzərində nisbətən normal müstəviyə çıxa bilər. Təbii ki, bu, sahibkarlığın inkişafına yaradılan süni əngəllər aradan qaldırılarsa baş tuta bilər.**

Gəncə şəhərində fəaliyyət göstərən sahibkarlar Fəxrəddin Elxan oğlu Həsənli və Elxan Oruc oğlu Məmmədov prezidentə müraciətlərini surətini “Yeni Müsavat”a göndəriblər.

**Sahibkarlar yazır ki, Vergilər Nazirliyi prezident fərmanını, üstəlik nazirliyin 12 oktyabr 2015-ci il tarixli Kollegiya Qərarını tanımır.** “Prezidentimiz qeyri-neft sektorunun inkişafını təmin etmək, sahibkarları yeni investisiya layihələrinə cəlb etmək və həvəsləndirmək məqsədilə sahibkarlıq subyektlərində yoxlamaların dayandırılması barədə fərman imzaladı. Həmin fərmanın 2-ci bəndinə əsasən, vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Həmin yoxlamalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılır. Fərmanın icrası ilə əlaqədar olaraq Vergilər Nazirliyi tərəfindən 12 oktyabr 2015-ci ildə kollegiya iclası keçirildi və sahibkarların durumunu yaxşılaşdıracaq qərar verildi. Qərarın 7-ci bəndinə əsasən, illik dövriyyəsi 120 min manatdan aşağı olan sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və operativ nəzarət tədbirlərinin keçirilməsi dayandırıldı. Biz hər birimizin dövriyyəsi 120 min manat deyil. Hətta ikimizin cəmi dövriyyəsi 50-60 min manatı keçmir. Fəaliyyətə başlamağımız da cəmi 5-6 aydır. Lakin fərman və qərara baxmayaraq, Vergilər Nazirliyi bizə qarşı qərəzli mövqe tutaraq Gəncə şəhərində yalnız bizə səyyar vergi yoxlaması təyin etdi. Bu da o deməkdir ki, Vergilər Nazirliyi prezident fərmanını və özünün qərarını tanımır. Bizə qarşı olan bu yoxlamanın keçirilməsinin qərəzli olması qənaətindəyik ki, bu da bərabərlik və ədalət prinsipinin pozulması deməkdir. Halbuki Gəncə şəhərində bizdən başqa olan bütün sahibkarlar tam sərbəst şəkildə qanunun verdiyi imkanlardan yararlanırlar”.

**Sahibkarlar prezidentin verdiyi qərardan yararlanmaq üçün sonadək öz haqlarını müdafiə edəcəklərini qeyd ediblər.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 34 (6355) 13 fevral 2016

**Fevralın 12-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Oqtay Əsədov iclası açıq elan edəndən və gündəliyi səsə qoyandan sonra cari məsələlərlə bağlı müzakirələrə ehtiyac olub-olmadığını soruşdu. Əksər deputatların "yox" cavabından sonra birbaşa gündəlikdəki məsələlərə keçildi.**



# Deputatlardan bələdiyyələrlə bağlı çıxış yolu təklifi

## "Bələdiyyələrə ya müstəqillik verək, ya da onları birdəfəlik ləğv edək"

### Arif Rəhimzadə: "Bir çox bələdiyyələr heç işçilərinə əmək haqqı da verə bilmir"

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsini təqdim etmək üçün söz **ədliyyə nazirinin müavini Vilayət Zahirov**a verildi. O, parlamentin yeni tərkibini təbrik edəndən sonra bələdiyyələrin fəaliyyətində aşkara çıxarılan qanunsuzluqlardan danışdı. Deputat bildirdi ki, bu il bələdiyyələr tərəfindən qanunsuz olaraq 47 hektar torpaq sahəsinin vətəndaşlara satılması faktı aşkarlanıb. Ümumilikdə 1406 hektar torpaq sahəsinin qanunsuz verilməsi barədə qərar ləğv edilib. 330 bələdiyyə üzvü barədə aktlar tətbiz edilib və inzibati məsuliyyət nəzərdə tutulub. Ümumilikdə bələdiyyələrin fəaliyyəti barədə 65 fakt hüquqi qiymət verilməsi üçün prokurorluğa göndərilib. V.Zahirovun sözlərinə görə, bütün bu faktlarla bağlı 10 material üzrə cinayət işi başlanıb, 2 bələdiyyə sədri isə məhkum olunub. Bələdiyyə iclaslarında müzakirə edilmədən bələdiyyə sədrləri tərəfindən torpaqların hərraclara çıxarılmadan dəyərindən aşağı qiymətə satılması faktları da üzə çıxarılıb. V.Zahirov onu da dedi ki, bələdiyyə satınalmaları ilə bağlı qanunun qəbul edilməsi bu sahədəki qanunsuzluqların qarşısını ala bilər.

**Regional komitənin sədri Arif Rəhimzadə** çıxışında bildirdi ki, bələdiyyələrin fəaliyyətinə nəzarət edən orqan 2015-ci ildə xeyli iş görüb. Komitə sədri xatırlatdı ki, prezident bələdiyyələrin fəaliyyətini kəskin tənqid edib: "Tənqid bilavasitə bələdiyyələrə ünvanlansa da, biz hamılıqla nəticə çıxartmalı və öz fəaliyyətimizdə dönüş yaratmalıyıq. Fəaliyyətini qurmaq üçün bələdiyyələrin müvafiq büdcəsi olmalıdır. Bələdiyyələrin 61 faizinin büdcəsi olduqca aşağıdır. Bir çox bələdiyyələr heç işçilərinə əmək haqqı verə bilmir. Bələdiyyələrin 14 faizinin əhalisi min nəfərə yaxındır. Orda vəziyyət lap acınacaqlıdır. Tənqid edilsə də, vəziyyət düzəlməyəcək. Qanun onlara əlavə vəsait ayrılmasına imkan verir. Ancaq nə 2014, nə də 2015-ci ildə onlara əlavə vəsait ayrılmayıb".

**A.Rəhimzadə bələdiyyələrin fəaliyyətinə nəzarət edən orqanın təmsilçisinin illik məruzəsindən sonra mövcud durumla bağlı tənqidi qeydlərini də etdi.** "Qəribə tendensiya var, burda verilən təkliflərə, səslənən iradlara heç bir reaksiya verilmir. Özümüz deyib özümüz eşidirik", - deyə şikayətləndi. Onun sözlərinə görə, deputatların sorğularına münasibətdə bəzi istisnalar da var: "Məsələn, Nazirlər Kabinetinə ünvanlanan sorğularına cavab verilir. Ancaq bəzi qurumlardan biz bunu görmürük. Təklif edirəm ki, burda səslənən təkliflər müvafiq qurumlara göndərilsin, cürətimiz çatsa, onlardan cavab da tələb edək.

**Spiker Oqtay Əsədov** da məsələyə reaksiya verdi: "Mən heç kimin xətrinə dəymək istəmirəm. Keçənilki hesabatla bağlı 20 millət vəkili çıxış edib, təkliflər verib. Bəs, hanı bu təkliflərə münasibət? Siz bu hesabata komitədə baxmısınız. Necə olur ki, 10 bələdiyyə yaxşı işləyir, min bələdiyyə pis işləyir? Deməli, sistem düzgün qurulmayıb. Bizim dəstək verməyimiz üçün bələdiyyələrin özündən də hərəkət olmalıdır, bunlardan təşəbbüs gəlməlidir".

**Deputat Fazil Mustafa** isə çıxışında əvvəlcə A.Rəhimzadəyə toxunduğu məsələlərə görə təşəkkür etdi: "Bu qurumun fəaliyyəti kifayət qədər darıxdırıcıdır. Hansı fəaliyyətdən söhbət gedə bilər ki, büdcəsində vəsaiti, səlahiyyəti olmayan, öz işçisinin belə əməkhaqqını verə bilməyən bir qurumdur? Mən gözləyirdim ki, bugünkü hesabatda bir islahat paketi təqdim olunacaq, onu da görmədim. Adi bir reklamdan pul yığmaq imkanları yoxdur. Hamısı Sosial Müdafiə Fonduna borcludurlar. Hesaba pul köçürülən kimi o pullar Fondun hesabına, borcun önənilməsinə yönəldilir".

**F.Mustafa ardınca Bakı şəhərindəki mövcud problemlərə diqqət çəkdi:** "Dəfələrlə məsələ qaldırdıq ki, Bakı Şəhər Böyük Bələdiyyəsi yaradılmalıdır, nəticə olmadı. Bu günlərdə mətbuatda xəbər yayıldı ki, Abbas Mirzə Şərifzadənin yaşadığı üçmərtəbəli evin sökülməsi nəzərdə tutulub. Başqa ölkələrdə belə abidələri qoruyub saxlayır, turistlərə təqdim edirlər. Bakıda bələdiyyə olsaydı heç vaxt tramvay xətlərinin sökülməsinə imkan verməzdi. Dəmir yolu xətlərini satdılar, şəhər yükləndi, metro bu yükü daşıya bilmir. Biz heç olmasa bugünkü iqtisadi böhran vəziyyətində bələdiyyəni dirçəltməliyik. Bunlar olmadıqca bu hesabatların da əhəmiyyəti olmayacaq".

**Deputat Azər Badamov** Ədliyyə Nazirliyinə müraciətlə bələdiyyələrə yardım istiqamətində ciddi addımlar atmağı vacib saydı.

**Deputat Zahid Oruc** da ənənəvi qaydada tənqidi fikirlər səsləndirdi: "Biz 17 il ərzində icra hakimiyyəti orqanlarını inandıra bilməmişik ki, bələdiyyələrin hətta yarımmüstəqilliyi vəziyyətə ciddi təsir göstərməyəcək. İcra başçısının bələdiyyələrə xəbərdarlıq etməyə nə ixtiyarı var, onlar müstəqil qurumdur. İcra hakimiyyəti orqanları bilməlidir ki, bələdiyyələrə müstəqillik verilməsi ilə onların yükü azalacaq". Əlavə etdi ki, bələdiyyələrə müstəqilliyin verilməsi heç də vəziyyətin köklü şəkildə dəyişikliyə gətirib çıxarmayacaq: "Onlar da azərbaycanlıdır. Ancaq əgər onları "torpaqsatan" imicindən çıxartmaq istəyiriksə, bu quruma ya ona müstəqillik verməliyik, ya da bu qurumu birdəfəlik ləğv etməliyik. Torpağı qoyub Bakıya gələn, burada kirəkeş yaşayan insan görməlidir ki, bələdiyyəyə verdiyi pul artezian quyusu şəklində onun özünə qayıtdı".

**Deputat Fərəc Quliyev** bələdiyyələrin statusunun artırılması təklifini verdi. "Hökumətin həddən artıq mərkəzləşdirilməsi problemlərin də mərkəzləşməsinə gətirib çıxarır. Ona görə də müvafiq orqanlar bələdiyyələrin fəaliyyətini yeni çağırışlara uyğun olaraq qurmağa çalışmalıdır" - deyə, o, bildirdi.

"Azərbaycanda bələdiyyə üzvlərinin sayı azaldılmalıdır". Bu fikirləri **deputat Siyavuş Novruzov** çıxışında dedi. YAP-çı deputat bildirdi ki, bələdiyyə üzvlərinin sayı minimum 1, maksimum 9-adək azaldılmalıdır: "Türkiyədə bələdiyyə üzvlərinin sayı kifayət qədər azdır. Növbəti seçkilərədək bu məsələlər qanunda öz əksini tapmalıdır. Elə kəndlər var ki, bələdiyyə üzvü seçməyə adam tapa bilmir. Bəzən 200 əhalisi olan kəndə 5 bələdiyyə üzvü seçilir. Məsələ diqqətdə saxlanılmalıdır".

"Fərəc Quliyev təklif etdi ki, istilik sistemini bələdiyyələrə verək. Bu bələdiyyə hələ özünü saxlaya bilmir, "katelnı"nı ona versək, onu necə saxlayacaq?" Spiker Oqtay Əsədov bu fikirləri deputat həmkarının təklifinə reaksiyasında bildirdi. Bundan sonra illik məruzəni səsverməyə çıxartdı və V.Eyvazovun məruzəsi qəbul edildi. Spiker təbrik etməklə bərabər onları parlamentlə mütəmadi işləməyə çağırdı: "Bir-birimizə mütəmadi dəstək verməliyik".

### Avtobus sürücüləri üçün "yaş senzi"

"Avtomobil nəqliyyatı haqqında" qanun layihəsinə təklif edilən dəyişiklik barədə **İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə** məlumat verdi. O bildirdi ki, sərnişin avtomobil nəqliyyatı vasitələrinin sürücülərinə dair tələblər sərtləşdirilib. Komitə sədrinin sözlərinə görə, avtobuslarla sərnişin daşımalarına "D" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, *(yaşı 22-dən az və 65-dən çox olmayan və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi beş ildən az olmayan)*, eləcə də "D, E" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, *(yaşı 25-dən az və 65-dən çox olmayan və "D" kateqoriyasına daxil olan avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi üç ildən az olmayan)* sürücülər buraxılacaq. Mövcud qanunvericiliyə görə, avtobuslarda sərnişin daşımalarına "D" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 21-dən, "DE" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 24-dən və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi üç ildən az olmayan sürücülər buraxılır.

**Deputat Bəxtiyar Əliyev** dedi ki, Bakıda avtobusları idarə edənlərin heç sürücülük vəsiqəsi belə olmur: "Onlar bəzən sərxoş hallarda avtobusu sürür və qəzalara səbəb olurlar. Statistika da göstərir ki, bu qəzalarda ölənlərin sayı təbii ölümlərdən çox olur. Avtobuslar gətirilib çox gözəldir. Bəs, avtobusların dayanması necədir? Elmlər Akademiyası yanında dayanacaqda 10 avtobus yolun sağında, 10 avtobus yolun solunda bir anda dayanırlar, tıxac yaradırlar və ya əks tərəfə çıxırlar. Bu imtiyazlar onlara kim tərəfindən verilir? Bunların himayədarları kimlərdir?" Paytaxtda hər addımda quraşdırılan parkomatlara bağlı da danışan B.Əliyev qeyd edib ki, bu cür hallar qanunsuzluqdur: "Cənab prezident bildirmişdi ki, maşınların dayanmasını çubuqla idarə edənlərin pulu bələdiyyələrə yönəldilsin. Bu gün maşınların saxlanılması üçün parkomatlar quraşdırılıb. Çox gözəl, amma bu parkomatlar harada gəldi qoyulub. Baxırsan dar birtərəfli yoldur, yolun həm sağı, həm solunda parkomat quraşdırılır və yol daralır. Yolların genişləndirilməsi tıxacların qarşısının alınması üçün edilib. Parkomatlara nəzarət edənlər kimdir? Başqa misal avtobus dayanacaqlarında parkomatlar quraşdırılıb, maşınlar, taksilər də dayanır. Bəs sərnişin harada minib düşsün? Bu məsələlər ictimaiyyətdə narahatlıq doğurur və qayda-qanun yaradılmalıdır. Şəhər nəqliyyatı təsərrüfatı dəyişdirilməlidir". Deputat əlavə etdi ki, paytaxtda eyni istiqamətdə hərəkət edən müasir avtobuslarla yanaşı, işə yaramayan, tüstüləyən avtobuslar da işləyir: "Şəhərin ortasına bu marşrutlara kim baxır? Biz gözəl qanunlar qəbul edirik. Amma bu qanunların icrasına nəzarət yoxdur. Təklif edirəm ki, Milli Məclisin qanunların icrasına nəzarət funksiyası səlahiyyəti bərpa edilsin".

**Deputat Çingiz Qənizadə** bildirdi ki, BakuBus avtobusları bir quruma verilsə də, köhnə avtobuslarda mənfi hallar qalmaqdadır. "Yaxşı ki, Nəqliyyat Nazirliyindən bu məsələlər alındı. 22 yaşında gəncə 30-40 insanın taleyini necə vəd etmək olar? Yaş həddini 23 deyil, 25 yaş təyin etmək lazımdır. Hərbi xidmət müddətini də nəzərə almaq lazımdır. Müəyyən qədər dolğunlaşmış insanlar o sükan arxasında əyləşməlidirlər".

**Deputat Siyavuş Novruzov** isə Azərbaycanda sürücülərin mədəni davranışının yüksəldilməsi üçün tədbirlər görməyə çağırdı: "İctimai nəqliyyatı idarə etmək üçün yaş həddinin üstündə çox dayanırıq. Burada söhbət sürücünün yetkinlik düşüncə tərzinə çatmasından gedir. Yaşın çoxluğu onu çılğınlıqdan, başqa mənfi hallardan uzaqlaşdıracaq. Marşrut avtobuslarında qayda-qanuna riayət olunmur. Biri musiqi qoyur, biri siqaret çəkir, biri telefonla danışır və digər qadağan olmuş hərəkətlər edirlər. Vətəndaşlarımız qorunmaq üçün belə hallar aradan qaldırılmalıdır. Bir də görürsən "çort"a gedib adamları aparıb başqa yerə çıxarırlar. Bu da insanların narazılığına səbəb olur. Yol təmiri zamanı sürücülər və sərnişinlər məlumatlandırılmır. İntellektual idarəetmə adı altında avtobuslar arasında intervallar tez-tez pozulur. Bu məsələlərə də diqqət etmək lazımdır". Deputat bildirdi ki, rayondan gələn sürücünün 10 il təcrübəsi olsa da, Bakıda yolları tanımır, yol hərəkəti qaydaları ilə bağlı işarələrin yerlərini bilmir: "Belələri lisenziya alıb sürücülük etməyə başlayanda qəza hallarına yol verirlər. Naxçıvanda ayda bir dəfə avtobus və taksi sürücülərini dövlət avtomobil müfəttişliyi bir araya toplayır, onlara xəritələri göstərir, hansı yolların təmir olunacağını və bağlanacağını bildirir. Belə təcrübələrdən istifadə etmək lazımdır". S. Novruzov söyləyib ki, Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi də işini düzgün qurmalıdır. Onun sözlərinə görə, işıqforların nizamlanmasında müəyyən problemlər var: "Bəzən elə olur ki, bir tərəfə 2 dəqiqə, digərinə isə 15 saniyə vaxt verir. Avtomobili işə salıb keçmək istəyəndə artıq qırmızı işıq yanır. Bu məsələ də ciddi nizamlanmalıdır". Deputat şəhərdə həm avtobusların, həm də taksilərin fəaliyyətinə diqqət edilməli olduğunu bildirdi.

**Müzakirələrdən sonra dəyişiklik qəbul edildi.**

❑ **Elşad PAŞASOY**



# Zığ düşərgəsindəki məhkumlar

Zamin HACI
zaminhaci@gmail.com

**Azərbaycan bank sistemi pis durumdadır, banklar bir-birinin ardınca bağlanır. Ancaq vətəndaş daha ağır durumda imiş. Dünən bir xəbər oxudum, bilmədim gülüm, yoxsa ağlayım: Bakıda bağlanmaqda olan bankdan pul oğurlayan adamı tutublar. Aydın məsələdir ki, o bankda pul yoxdur, olsa niyə pis duruma düşsün? Vətəndaş isə ümid edirmiş bəlkə kassanın dibində nəsə qəpik-quruş qalmışdır.**

Ümumiyyətlə, yeni dövr yeni mənzərələr gətirir. Örnək üçün, prezidentin məktublar şöbəsinin müdiri Süleyman İsmayılovun açıqlamasını idarəçilikdə postmodernizm adlandıra bilərik. Sizcə, Süleyman müəllim nə edib? Bəlkə vətəndaşların bütün məktublarına cavab yazıb? Yaxud şikayətçilərin hamısını aparata çağırıb "Yaxşı vətəndaş" mükafatı veriblər? Tapmadınız. Süleyman müəllim elə bir hərəkət edib ki, dünyada kimsənin ağlına gəlməz: son illərdə Prezident Administrasiyasına ən çox şikayət məktubu yazanların adlarını mətbuata açıqlayıb!

Fantastikadır. Özü də detallı siyahıdır: filan rayon sakini filankəs, behman rayon sakini behmankəs və sairə. Deyir yoxlamışıq, bu adamların şikayətləri təsdiqini tapmayıb, ancaq yenə də şikayətlənirlər.

Bəlkə o adamlar dəli olublar? Niyə Süleyman müəllim bu haqda düşünmür? Başqa yöndən, dövlət ona davamlı şikayət yazanların adını niyə açıqlayır ki? Bəlkə ictimai qınaq təşkil etmək istəyirlər? Deyirlər gedək həmin məktub yazanları tapaq, tutaq yaxalarından, məktublarını alıb cıraq, deyək ay filan-filan olmuşlar, nə üçün imkan vermirsiniz Süleyman müəllim vacib dövlət işləri ilə məşğulat eləsin? Əks halda, kiminsə davamlı şikayətləri uzağı özünə ziyandır, konvert alır, marka yapışdırır, mürəkkəb, kağız, tüpürcək israf edir və sairə.

Ancaq həyat Süleyman müəllimin poçt qutusunun deşiyindən görünən qədər bəsit deyil. Dünən "Yeni Müsavat"da jurnalistlər İlkin Muradov və Toğrul İsmayılın "Özünü yandıran 23 yaşlı gəncin dəhşətli həyat hekayəsi" başlıqlı fotoreportajı var idi. Siz özünüz tapıb oxuya bilərsiniz, mən qısa özətini yazım. Bu il fevralın 10-da Zığ qəsəbəsində Taleh Əmirli adlı 23 yaşlı gənc özünü yandırıb, xəstəxanada ölüb. Jurnalistlər onun evinə gediblər və dəhşətli mənzərə görüblər: gənc işsizlikdən, 1 yaş yarımlıq astma xəstəsi körpəsinə dərman ala bilmədiyindən bezib intihar edib. İndi onun ailəsi - arvadı, uşağı, xəstə anası və xalası yarıuçuq tikilidə ac-susuz qalırlar. "Mənzilin" yaşayış şəraiti sıfıra yaxın. Ailədə yeganə pul qazanan talesiz Taleh olub, heç yas da keçirə bilməyiblər, hazırda qonşuların yardımı ilə yaşayırlar. Vaxtilə evləri Mingəçevirdə imiş, ana xəstələnib, tibbi əməliyyata pul lazım olub, evi satıb Bakıda əməliyyat puluna veriblər, azca qalan hissəsinə də bu xarabanı alıblar. Talehin atası isə 1994-cü ildə yapistlərin biabırçı Murov hərbi əməliyyatında itkin düşüb. Atası itkin düşəndə Taleh anasının bətnində imiş. (Minlərlə azərbaycanlı gənci Əli Ömərov kimi gerizəkalıların hazırladığı o qırğında qurban verməşdilər).

İndi yapistlər deyə bilərmi bu ailənin günahı nədir? Niyə bu bədbəxtləri repressiya edirsiniz? Şikayət yaza bilməyən, xaricə qaça bilməyən, axurunuza yaxın düşə bilməyən qırılmalıdırmı?

**Yeri gəlmişkən, mərhum Taleh Ömərlinin sağ qalmış ailəsindəki üç qadının üçünün də fotolarını birləşdirən bir ümumi cəhət vardı: onlar zolaqlı paltar geyinmişdilər! İstəsəniz bunu da Ömərlinin Ömər dağında Ömərov kimilərin günahı üzündən həlak olmuş atası kimi təsadüfi uyğunluq saya bilərsiniz. Ancaq bu 3 qadının zolaqlı geyimi necə də bizim həbsxana həyatımızın rəmzi kimi görünürdü! Hərçənd, zolaqlı həbsxana geyimi də alman konslagerləri dövründə qalıb, axırıncı dəfə məhbusa zolaqlı geyimi Britaniyada, 1991-ci ildə geyindiriblər, o vaxtdan bəri bu geyim forması işlək deyil. Zığda qalırmış hələ!**

# ABŞ-ın Qarabağla bağlı addımlarına iki fərqli münasibət

**ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekutanın bu günlərdə verdiyi "Ermənistan qoşunları Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş əraziləri boşaltmalıdırlar" məzmunlu bəyanatının ardınca məlum oldu ki, ABŞ-ın gələn ilki dövlət büdcəsi layihəsində Dağlıq Qarabağdakı işğalçı rejimə yardım üçün vəsait nəzərdə tutulmayıb. Bu fakt prezident Barak Obama tərəfindən 2017-ci maliyyə ili üzrə dövlət büdcəsi layihəsinin təsdiqindən sonra geniş rezonans doğurub. Qeyd edək ki, bundan əvvəlki büdcələrdə hər il Dağlıq Qarabağdakı seperatçı rejimə 1,5 milyon dollar ayrılırdı. Son qərar isə Amerika Ermənilərinin Milli Komitəsində (ANCA) ciddi təlaşa səbəb olub. ANCA-nın icraçı direktoru Aram Ambaryan ABŞ tərəfindən Dağlıq Qarabağdakı işğal rejiminə 5 milyon dollar yardım ayırmağı tələb edib. Ermənistanın daxilində də siyasi qüvvələr Vaşinqtonun bu addımından narazılıq ifadə ediblər.**

Azərbaycan müxalifətində isə hər iki hadisəyə münasibət fərqlidir.

**Müsavat Partiyasının başqanı Arif Hacılı** bildirdi ki, işğal altında olan Qarabağın separatçı rejiminə maliyyə vəsaiti ayrılmasının dayandırılması və ABŞ-ın Azərbaycandakı səfirinin işğal olunmuş rayonlarla bağlı açıqlamaları mühüm əhəmiyyət kəsb edir: "Maliyyə vəsaitinin həcmi, məncə, burada mühüm rol oynamır. Söhbət 1,5 milyon dollar vəsaitdən gedir. Ancaq bu yardımın ayrılması daha çox simvolik xarakter daşıyırdı. Qarabağın separatçı rejimi öz siyasətində və təbliğatında bu amildən geniş istifadə edirdi. Hesab edirəm ki, bu baxımdan biz vəziyyətin bu sahədə müsbətə doğru dəyişdiyinin şahidi oluruq. Bütövlükdə bu istiqamətdə indi yaranmış ümumi siyasi vəziyyətdən istifadə edərək fəaliyyəti genişləndirmək lazımdır. Xüsusilə dünya birliyi Rusiya tərəfindən işğal olunmuş Krımı Ukraynanın tərkib hissəsi kimi tanıdığı və Krımın qaytarılmasını açıq şəkildə tələb etdiyi bir məqamda Azərbaycan tərəfi də bu problemlərin mahiyyətinin eyni olduğunu gündəliyə gətirərək bütövlükdə Qarabağla bağlı müzakirələrdə irəliləyişlərə nail ola bilər. Bu baxımdan Azərbaycan cəmiyyəti səfərbər olunmalıdır. Bütövlükdə hər iki halı müsbət qiymətləndirirəm. Hər iki hadisə Azərbaycanın maraqlarına cavab verir".

**ADP sədri Sərdar Cəlaloğlu** isə hesab edir ki, separatçı Dağlıq Qarabağ rejiminə maliyyə yardımının dayandırılması heç də Amerikadan bütün yardımların kəsilməsi demək deyil. Çünki qeyri-rəsmi şəkildə amerikalılar zaman-zaman "xeyriyyə" aksiyaları təşkil edib Dağlıq Qarabağın separatçı rejiminə vəsait toplayırlar: "Yəni maliyyə yardımı rəsmi şəkildə dayandırılsa da qeyri-rəsmi şəkildə qalır. ABŞ səfiri Sekutanın işğal olunmuş rayonlardan Ermənistan qoşunları geri çəkilməlidir bəyanatını qismən alqışlamaq olar. Amma ortaya sual çıxır ki, səfir niyə "Dağlıq



**Arif Hacılı:**
"Hər iki hadisə Azərbaycanın maraqlarına cavab verir"



**Sərdar Cəlaloğlu:**
"20-ci əsrin əvvəlindəki ssenari təkrarlanır, Azərbaycan xalqı dünya güclərinin kələyinin nədən ibarət olduğunu başa düşə bilmir"

Qarabağın ətrafındakı işğal olunmuş rayonlar" deyir? Məgər Dağlıq Qarabağ adlanan ərazidəki Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdərə, digər rayonlar və kəndlər Azərbaycanın deyil? Məgər onlar da işğal olunmayıb? ABŞ səfiri məsələni elə şəkildə qoyur ki, sanki işğalda ancaq Dağlıq Qarabağ adlanan ərazinin ətrafındakı 7 rayon var. Xankəndi də Ağdam kimi Azərbaycan ərazisidir və BMT tərəfindən Azərbaycan dövlətinin ərazisi olaraq qəbul edilib. Səfirin o cür açıqlaması o deməkdir ki, Dağlıq Qarabağ Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazisi sayılmır. Əgər doğrudan da və səmimi şəkildə Dağlıq Qarabağ probleminin həlli tələb olunursa, bütünlükdə Azərbaycanın işğal olunmuş əraziləri nəzərdə tutulmalıdır. Dağlıq Qarabağ işğal olunmuş ərazi kimi ifadə edilmirsə, ancaq 7 rayon işğal olunmuş ərazilər kimi dilə gətirilirsə bu, o deməkdir ki, bu cür mövqeni ortaya qoyanlar işğalçıların Dağlıq Qarabağda olmasına dəstək verirlər. Bu cür yanaşma 20-ci əsrin əvvəllərində də Azərbaycanın Zəngəzur mahalının ermənilərə verilməsi siyasətinin təkrarlanmasından başqa bir şey deyil. 1920-ci ildə Rusiyanın planı əsasında Qarabağla bağlı bir razılaşma var idi. Həmin razılaşmada deyilirdi ki, Azərbaycan Zəngəzuru ermənilərə güzəştə gedir və əvəzində ermənilər Azərbaycanın digər ərazilərinə, o cümlədən Qarabağa iddia eləmirlər. Bu gün tarixi Azərbaycan torpağı Zəngəzur Ermənistanın ərazisi sayılır dünya tərəfindən, ermənilər də Dağlıq Qarabağı ələ keçiriblər. İndi də bizə Dağlıq Qarabağın ətrafındakı 7 rayonumuzun əvəzində Dağlıq Qarabağı ermənilərə güzəştə getməyi qəbul etdirmək istəyirlər. 20-ci əsrin əvvəlindəki ssenari təkrarlanır. Təəssüf ki, Azərbaycan xalqı dünya güclərinin kələyinin nədən ibarət olduğunu başa düşə bilmir".

Qeyd edək ki, 1992-ci ildə erməni lobbiçiliyinin fəal dəstəyi ilə Amerikanın Azərbaycana maliyyə və hərbi yardımlara qadağa qoyan "Azadlığa dəstək aktı"na 907-ci düzəliş qəbul ediləndən sonra Azərbaycan faktiki olaraq sanksiyaya məruz qoyuldu. 907-ci düzəlişin qüvvədə olmasının təsiri nəticəsində 1996-cı ilə kimi Amerika Ermənistana 612 milyon dollar, Gürcüstana 420 milyon dollar, Azərbaycana isə cəmi 80 milyon dollar ayırmışdı. 1996-cı ildə isə Nümayəndələr Palatasının erməni lobbiçiləri tərəfindən 1997-ci ildən etibarən Dağlıq Qarabağ ermənilərinə də ayrıca maliyyə yardımı ayrılmasına nail olundu. 907-ci düzəlişin icrası yalnız 2001-ci ilin 11 sentyabr terrorundan sonra dayandırıldı. Lakin Qarabağ separatçılarına yardım davam etdirildi. Bu dəfə sonda hansı tərəfin güləcəyi də müəmmalıdır.

**ABŞ-ın 2017-ci ildə işğalçı Ermənistana edəcəyi iqtisadi yardım isə Azərbaycana ayrılacaq vəsaitdən təxminən iki dəfə çox olacaq. Bu rəqəm 22 milyon 412 min dollardır. Büdcə layihəsində Azərbaycana ediləcək yardım isə 10 milyon 936 min dollar səviyyəsində nəzərdə tutulub. Hansı ki, normalda Ermənistan işğalçılıq siyasətinin cavabında sanksiyaya məruz qalmalıdır, nəinki milyonlarla dollarlıq yardım almalı. Üstəlik də bu yardım ərazisini işğal etdiyi ölkəyə ayrılan vəsaitdən çoxdursa, ikibaşlı siyasətdən söhbət gedir. Ona görə də rəsmi Bakı Qarabağ ermənilərinə ayrılan vəsaitin dayandırılması məsələsinə reaksiya verməyə tələsmir.**

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 34 (6355) 13 fevral 2016



# Örnək türkmən təzimi

Samir SARI

**Qəşəng videodur, operator işinə söz yoxdur. Hiss olunur ki, təbliğat-təşviqat məqsədilə çəkilib, hazırlanıb. Məqsəd Türkmənistan həqiqətlərini dünyaya çıxarmaq, türkmənlərin öz müdrik rəhbərlərini necə sevdikləri hamıya göstərməkdir. Alınıb.**

Deməli, videodan görünür ki, ali sarayın ən möhtəşəm zalıdır. Qucaqlarında eyni cür süslənmiş böyük gül-çiçək çələngi tutmuş şıq kostyumlu məmurlar boyda-boyda dayanıblar və prezident Qurbanqulu Berdımühəmmədov içəri girir, onları salamlayır. Ardınca hərəkətlənmə başlayır. Məmurlar sıralarını və ara məsafəsini qoruyaraq, bir-birinin ardınca ona yaxınlaşır, təzim edir, gedirlər.

"Təzim edir" deyəndə elə çıxa bilər ki, məmurlar prezidentin qarşısında yüngülcə baş əyirlər. Xeyr. Baş əymək öz yerində, amma məmurlar dizlərini də bükürlər - eləsi var hər ikisini eyni cür bükür, eləsi də var ki, sağ dizini daha çox əyir. Bel də ki, əvvəlcədən bükülmüş halda olur. Yəni təzim nöqtəsinə təxminən 3 metr (bəlkə də üç metr yarım) qalmış onurğa sütunu şaxlığını itirir və adam o böyük rəhbərə o şəkildə yanaşır. Boyunun qısılması da, görünür, şərtdir, hamısı qısır.

Sifətdən söz gedirsə, əlbəttə, prezidentə donuq, peyin kürəkeşi kimi ifadəsiz sifətlə yanaşmaq olmaz, gülümsər çöhrə mütləqdir. Amma bunun da incəlikləri var, bu təbəssüm irişmə sərhədlərinə keçməməlidir, dişlər görünməməlidir, üstəlik, dövlət başçısına tuşlanmış təbəssüm gözlərdə də inikas olunmalıdır. Həm də səmimi şəkildə. Yoxsa, vallahi, yeni Türkmənbaşı özü həkim adamdır, insan sərrafıdır, duysa ki, ona təzim edən məmurun gülümsəməsində qeyri-səmimilik var, adamı işdən çıxarıb Marı (keçmiş Mərv) tərəflərdə qoyun otarmağa göndərər.

Təzim edənlərin içində eləsi olur ki, başı az qala Berdimühəmmədovun toqqaçəkilən nahiyəsinə qədər enir. Balacaboy adam idi, ona görə. Əslində o adam gərək özünün və prezidentin boy proporsiyasını düzgün ölçəydi və bu duruma düşməməli idi.

Eləsi də var, sanarsan, bu saat əyilib prezidentin əlini öpəcək. Yeri gəlmişkən, Qurbanqulu çox modern rəhbərlərdəndir ki, hələ əl öpdürməyi protokola saldırmayıb. Belə götürəndə bu, artıq texniki iş halına gəlib. Onun bircə eyhamı kifayətdir ki, ilk yaxınlaşan məmur Türkmənbaşının əlini öpsün, ondan sonra gələnlər xroniki marçmarç salacaqlar. Görünür, Qurbanqulu doxdur bu vacib hörmət-izzət ritualını sırf gigiyenaya riayət baxımından tətbiq etmir. Hər ağızda 1 milyon mikrob var, nəyə lazımdır ki, gəlib onun əlini mikroblasınlar. Hərçənd o, bu işi sağ əlinə rezin əlcək (lateks) geyərək də etdirə bilər. Heç kəs etiraz etməz, tökülüşüb öpəcəklər.

Deyilənə görə, bir ara türkmən məmurlar Türkmənbaşının abidəsi önünə də beləcə gedirmişlər, abidəyə çatıb baş əyirmişlər, pis çıxmasın, dombalan dombalana söykənirmiş. Amma sonradan Berdimühəmmədov bu ritualı ləğv etdirib, deyib, ölkədə pərəstiş, sitayiş yeri yek olsa yaxşıdır.

İndi camaat bu videokadrlara baxıb türkmən məmurlara lağ edir, Türkmənistanla Şimali Koreyanın qüsurlu müqayisəsini aparırlar. Hərçənd arada fərq böyükdür. Şimali Koreyada məmurlar gənc və perspektivli rəhbər Kim Çen Inı görəndə sevgidən ağlaşırlarsa, Türkmənistanda məmurlar Berdımühəmmədovu görəndə gülümsəyirlər. Görünür, Kim Çenın xarizması daha böyükdür, görünüşü daha çox riqqət doğurur. Ancaq ümid etmək olar ki, yavaş-yavaş qardaş türkmənlər rəhbərə öz sevgilərini daha duyğulu şəkildə ifadə edəcəklər. Dünya ağzını ayırıb Asiyaya baxır.

Allah tərəfi, bizim də məmurlar təzim məsələsində qanacaqlıdırlar, rəhbərlə görüşəndə üzlərindən, gözlərindən təbəssüm əskik olmur, hətta boyun fəqərələrində, onurğa sütunlarında yüngülcə və müvəqqəti deformasiyalar da olur, ancaq bizimkilər qardaş türkmənlər kimi eləmirlər.

Görünür, o video təcili olaraq link şəklində nazirliklərə, komitələrə, dövlət şirkəti və konsernlərinə göndərilməlidir ki, məmurlarımız baxsınlar, örnək götürsünlər.

Ya da bir sıra protokol qaydalarını Avropa ölkələrindən əxz eləmək lazımdır və qucağa çələng alıb diz bükməyə-filana ehtiyac yoxdur.

**Hər halda yenə şükür edək o gözəgörünməzə ki, dünyaya belə videolarla çıxmırıq.**

# Nazir balaları harada hərbi xidmət keçir?

**Müdafiə naziri Zakir Həsənovun nazir övladlarını da orduya çağırması barədə general-leytenant Yaşar Aydəmirovun fikirləri gündəmin əsas mövzularından birinə çevrilib.**

İndiyə qədər iri ranqlı dövlət məmurlarının, eləcə də, imkanlı şəxslərin övladlarının orduya getməməsi, yaxud adlarını yalnız hərbi hissələrdən birinə yazdırmaları, əvəzində kasıb balalarının orduya aparılması kimi cəmiyyətdə gəzən fikirlər daim gündəmdə olub. Bunun fonunda nazir övladları ilə bağlı yayılan xəbərlər cəmiyyətdə qığılcım oyadıb. Çoxları hesab edir ki, bu amil hazırda dünya ölkələri arasında 50-ci yerdə olan Azərbaycan ordusunun müharibə əhval-ruhiyyəsini daha da artıracaq, nəticədə torpaqlarımızın azad edilməsi istiqamətində güclü ordu formalaşacaq.

Hər kəsin bərabərhüquqlu olduğu yerdə inkişaf daha yüksək olur. İri ranqlı məmurlardan hansının övladının orduya çağırması hələlik ictimaiyyətə açıqlanmasa da, buna inanmaq mümkündür. Çünki Zakir Həsənov nazir postuna gəldiyi gündən Azərbaycan ordusunun əvvəlkindən qat-qat irəliyə getdiyi açıq şəkildə görünür.

Müdafiə Nazirliyinin yayılan xəbərlərə münasibətini öyrənməyə çalışdıq. Qurumun mətbuat xidmətinin rəhbəri Vaqif Dərgahlı orduda nazir övladlarının qulluq edib-etməmələrini Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən soruşmağımızı uyğun bildi. Həmin qurumdan isə zənglərimizə cavab verilmədi.

## Qabil Hüseynli: "Ən azından onların Bakıda, Sərhəd Qoşunlarında xidmət etməsi barədə xəbərlər var"



**Politoloq Qabil Hüseynli** yayılan xəbərlərin həqiqəti əks etdirdiyini söylədi: "Zakir Həsənov nazir gələndən bəri orduda böyük islahatlar həyata keçirilir. Ordunun maddi, texniki təchizatı ölçüyəgəlməz dərəcədə yüksəlib. Döyüş hazırlığı və ruhu xeyli artıb. Bu gün Azərbaycan ordusu dünya orduları arasında 50-ci yerdədir. Çox böyük uğurdur. ABŞ-ın "Stratfor" Araşdırmalar Mərkəzi qeyd edir ki, Azərbaycan ordusu hissə-hissə Dağlıq Qarabağı geri qaytarır. Yaxınlarda Qazaxda ən böyük yüksəklik ordumuz tərəfindən ələ keçirildi. Həmin yüksəklikdən Qarabağa, Ermənistan ərazisinə nəzarət etmək mümkündür. Təmas xəttindəki qarşıdurmalarda daim Azərbaycan ordusu üstünlüyü əldə saxlayır. Erməni postları da kilometrlərlə geri çəkilmək məcburiyyətində qalırlar. Bundan arxayınlaşmaq olmaz. Məmur övladlarının orduda xidmətə cəlb olunması həqiqətə çox yaxındır. Çünki onların orduya çağırılması Zakir Həsənov nazir gələndən sonra həyata keçirilməyə başlayıb. Ola bilsin ki, onlar Murovdağ və digər təmas xətlərində xidmət keçməsinlər. Ən azından onların Bakıda, Sərhəd Qoşunlarında xidmət keçməsi barədə xəbərlər var. Çətin vəziyyətdə həmin şəxslərin özləri üçün imtiyazlı vəziyyət yaratmaq cəhdləri danılmazdır. Amma bunlara baxmayaraq, ümumi qaydalara əməl edirlər. Ona görə də, orduda əhval-ruhiyyəni artıran amillərdən biri məhz budur. İnsanlar hərbidə ayrı-seçkiliyin olmadığını, nazir övladlarının da hərbi xidmət keçdiyini gördükcə, onlarda orduya ciddi inam yaranır. Əsgərlər də daha yüksək səviyyədə döyüş hazırlığını və digər işləri həyata keçirirlər. Azərbaycan ordusunun ən böyük uğurlarından biri odur ki, ümumxalq ordusunda heç kəsin yüksək imtiyazı yoxdur".

❑ Cavanşir ABBASLI

# Məmurların rayonlara səfəri əhalinin gərginliyini azaldırmı...

## Sosioloq Əhməd Qəşəmoğlu: "Nazirlərin əyalətə gəlişi sabaha inamı artırır, bu, vacib addımlardan biridir"

**Nazirlərin, yüksək vəzifəli digər məmurların rayonlara səfəri ümumilikdə müsbət tendensiya olsa da, yerlərdə xeyli insan görüşün təşkilindən razı qalmır.**



Sirr deyil ki, hazırda Azərbaycanda olan əsas problemlərdən biri işsizlikdir. Xüsusən də rayonlarda əksər insanlar işsizdir. Məhz bu problemə görə gənclərin xeyli hissəsi Rusiyaya işləməyə üz tutub. Yerdə qalanlar isə çayxanalarda gün keçirirlər.

Prezident İlham Əliyev dövlət rəsmiləri ilə görüşlərdə də məmurlara bölgələrdəki insanların problemləri ilə maraqlanıb, həll etmək tapşırığını verib.

Maraqlıdır, məmurların regionlara səfəri sosial problemlər məngənəsində boğulan və gərgin olan əhalini qismən sakitləşdirə bilirmi?

**Sosioloq Əhməd Qəşəmoğlu** bu addımın insanlarda sabaha ümidi yaratdığını bildirdi: "Buna fikrim müsbətdir. Çünki indiki vaxtda bizim xalqımıza istənilən mövqedən yanaşanda bir işdə kömək eləmək, sabaha inamı artırmaq lazımdır. Çünki nə cür olur olsun, cəmiyyətə neqativ təsir edən, insanlarda ruh düşkünlüyü yaradan, gələcəyi haqda pis düşünən, hətta intihara aparan səbəblərin birincisi sabaha inamı itirməkdir. Məmurların rayonlara getməyi, insanları qəbul etməsi müsbət hadisədir. Rayonu canlandırır və hadasa sabaha inamı artırır. Bu cür səfərlər vacib addımlardan biridir. Çünki insanların sosial problemlərini həll etmək öz yerində amma sabaha inamı da artırmaq lazımdır. Amma eşitdiyimə görə bir çox insanlara konkret köməklik göstərilib, problemləri həll edilib. Bu özü çox yaxşıdır ki, yerdə qalanlarda da bir ümid yaranır ki, problemlər həll ola, vəziyyət yaxşılaşa bilər".

**Sosioloq məmurların regionlara səfərinin nəticəsiz qalacağı təqdirdə isə bunun növbəti gərginliyinə səbəb olacağını dedi:** "İnsanlar böyük ümidlə məmurları gözləyir ki, gəlib hansısa problemlərin həllinə çalışacaqlar. O ümid olmayanda, özünü doğrultmayanda əks effekt verir. Elə mexanizmləri həyata keçirmək lazımdır ki, rayona gedən məmurun məsələləri müsbət həll etməyə imkanı olsun. Bunun isə iki yolu var: Bir təcili yardım metodları var. Yəni təcili olaraq rayonlarda nəyisə etmək olar. Amma gələcək üçün daha dayanıqlı olan metodlar var.

Mən dəfələrlə mətbuat vasitəsilə təkliflərim olub. Çalışmaq lazımdır ki, rayonlarda torpaqların hamısı istifadə olunsun. Yəni baxımsız torpaq olmasın. Bunun üçün də xüsusi mexanizmlər hazırlamaq lazımdır. Rayonda, kənddə elə bir mühit yaranmalıdır ki, fermer, kəndli ancaq istehsalatla məşğul olsun. Kənd təsərrüfatı məhsulları istehsal etsin. Buna görə kənddə infrastruktur düzəlməlidir ki, texnika, sektorlar, gübrə, maliyyə ilə olan məsələlər düzəlməli, şəbəkələr qurulmalıdır. Ən mühümü isə tədarük şəbəkələri olmalıdır ki, kəndli yetişdirdiyi məhsulu satmaq üçün gəlib yollarda qalıb bazar axtarmasın. Bax bu mexanizmlər işləsə, rayona gedən mütəxəssislər də, nazirlər də daha çox geniş imkanlara malik olar. İndi isə təcili yardım şəraitində bir neçə işlər görmək olar. Bu, müəyyən müddətdən sonra əhali arasında pessimist bir əhval-ruhiyyə yarada bilər. Ona görə də paralel olaraq təcili yardım metodları ilə geniş aspektli işlər görməyə ehtiyac var".

❑ Günel MANAFLI

YENİ MÜSAVAT
N 34 (6355) 13 fevral 2016

# Təhlükədə olan banklar birləşmək istəmir

## Birləşmə qərarı Mərkəzi Bankın oyunudur, yoxsa banklar qurumu saymır?

**Ölkədə altı bankın bir-birinin ardınca bağlanmasından sonra bankların birləşməsi məsələsi ortaya atılsa da, nəticə əldə olunmayıb. Əksinə, görünən odur ki, banklar birləşmək istəmir. Mərkəzi Bankın illərdir ki, banklara birləşmə təklifi versə də, banklar bu addımı atmaqdan imtina edirlər. Ekspertlərin sözlərinə görə, növbəti birləşmə qərarının arxasında bir neçə səbəb dura bilər, ya Mərkəzi Bank bankların bağlanmasını saxlayaraq, oyun oynayır, yaxud da banklar bu qurumu saymırlar.**

Qeyd edək ki, "AGBank" "DəmirBank"la birləşməsi məsələsinə aydınlıq gətirib. Bir müddət əvvəl elan olunan "AGBank" ASC ilə "DəmirBank" ASC arasında nəzərdə tutulan konsolidasiya prosesinə xitam verilib. Bildirilir ki, bununla belə, çoxillik fəaliyyəti nəticəsində əldə etdiyi nailiyyətləri yeni formada yaşatmaq, dəyərli müştərilərinə qabaqcıl standartlara uyğun xidmətin davamlı olaraq göstərilməsini və bankın illər ərzində formalaşan yüksək peşəkarlıq ənənələrinə sadiq işçi heyətinin bank xidmətləri bazarında fəaliyyətinin səmərəliliyini daha da artırmaq məqsədilə "AGBank" ASC, digər bir yerli bankla müvafiq məsləhətləşmələr aparıb. Belə danışıqlar nəticəsində ölkənin aparıcı banklarından olan "Bank Standard" KB ilə ilkin razılaşma əldə olunub və bu barədə bankların səlahiyyətli nümayəndələri tərəfindən 2016-cı ilin 11 fevral tarixində niyyət protokolu imzalanıb. Əldə olunmuş razılaşmaya əsasən bankların nümayəndələrindən ibarət işçi qurupu "AGBank" ASC-nin OSC "Bank Standard" KB-a qoşulması layihəsinin gercəkləşdirilməsi istiqamətində birgə işlər aparılacaq.

**Ekspert Əkrəm Həsənov** isə məsələ ilə bağlı musavat.com-a bildirib ki, bankları zorla birləşdirmək olmaz: "Bu birləşdirmə təklifləri daha çox aşağıdan yox, yuxarıdan gəlirdi. Banklar bir-birinə rəqibdir. Rəqiblərin arasında ziddiyyətlər çoxdur. Birləşmə zamanı birinci məsələ odur ki, kimin orada nə qədər payı olacaq. Bu, əmlak məsələsidir, o bankların sahiblərinin bir-birinə etimadı yoxdur. Ən əsası odur ki, adları çəkilən bankların çoxu əslində bağlanmalıdır. Sadəcə, Mərkəzi Bank onları bağlamaq əvəzinə birləşdirmək istəyir ki, səbəb məlumdur. Çünki o banklar bağlansa, Əmanətlərin Sığortalanması Fondu oradakı əmanətləri kompensasiya etməli idi. Bu əmanətləri qaytarmağa isə kifayət qədər pulu yoxdur. Buna görə bağlanma əvəzinə birləşdirmə aparılması təklif edilir. Mərkəzi Bank birləşdirmə oyununu atıb ortalığa. Banklar böyük məmnuniyyətlə özlərini bağlayardılar. Birləşmə isə onların üzərinə məsuliyyət qoyur, vəzifələr qoyur. Buna görə banklar birləşməyə getmirlər. İstisna etmirəm ki, hansısa banklar könüllü birləşə bilərlər. Banklar gərək sağlam olsunlar. Belə qeyr-sağlam bankların birləşməsi mümkün deyil". **Ekspertin sözlərinə görə, sağlam bankların birləşdirilməsi bank sektoruna təsir edə bilə**: "Sağlam, lakin müəyyən problemləri olan banklar birləşdirilsə, bazara təsiri müsbət olacaq. Çünki bu birləşmə nəticəsində yaranan bank güclü olacaq. Qeyri-sağlam banklar birləşdirilsə, vəziyyət daha da pisləşəcək. Həmin bankları əslində bağlamaq lazımdır. Nəticə etibarı ilə birləşmə prosesi ilə yanaşı, qeyri-sağlam bankların bağlanması davam edərsə, müsbət dəyişikliyə ümid etmək olar. Əks halda, daha da pis olacaq".




**Ekspert Natiq Cəfərli** isə musavat.com-a bildirib ki, əslində bankların birləşməsi, böyük bankların yaranması iqtisadiyyat üçün pozitiv bir addım ola bilərdi: "Amma Azərbaycanda bank sektorunda böyük problemlər olduğunu nəzərə almaq lazımdır. Yəni əsas problemlərdən biri odur ki, birləşmə baş verərkən tək aktivlər yox, passivlər birləşdirilir. Bankların tək gəlirli sahələri yox, həm də problemli sahələri, xərcləri birləşdirilməlidir. Bir çox banklar bir-birinin problemini özlərinə götürmək istəmirlər. Çünki bank sektorunda ümumiyyətlə ciddi problemlər var. Ona görə də birləşmə vaxtı dövlət yardımı və banklara heç bir təşviq tətbiq olunmayacaqsa, banklar başqalarının problemini öz üzərinə götürməkdə çətinlik çəkirlər. Ona görə həm birləşdirilmə istəyən banklar çox güman ki, Mərkəzi Bankdan hər hansı addım gözləyirlər. Yəni təşviq və yardımlar olsun ki, onlar bu prosesə getsinlər. Əgər bu, baş verməyəcəksə, birləşmə də baş verməyəcək və bir çox bankların müflis olub sıradan çıxmasından başqa yol qalmayacaq. Xırda bankların bağlanması sürətlənəcək. İnzibati yollarla bunun uzun müddət qarşısını almaq mümkün deyil. Sadəcə, indi ajiotajın qarşısını almaq üçün Mərkəzi Bank belə bir qərar verdi ki, altı bankdan sonra bankların lizensiyasının alınması dayandırılsın. Bankların bağlanmasının dayandırılması bununla bağlıdır və müvəqqətidir. Amma birləşməsi üçün banklara müəyyən güzəştlər və təşviqlər təklif olunmalıdır. Mərkəzi Bank və hökumət tərəfindən güzəştlər olmalıdır. Əgər bu, olmayacaqsa, bir müddət sonra yenidən bankların bağlanması və müflis elan olunması məsələsi gündəmə gələcək".

Qeyd edək ki, ölkədə ilin əvvəlində altı kommersiya bankının lisenziyasının ləğv edilməsi, bununla bərabər, konsalidasiya tədbirlərinin gücləndirilməsi banklarla bağlı yaranan psixoloji gərginliyi bir qədər də artırıb. Ekspertlər bağlanacaq bankların qısa müddət sonra sayının artacağını istisna etmirlər.

**Milli Məclisin deputatı Vahid Əhmədov** da bankların birləşməsinin vacibliyini qeyd edib: "İslahatın aparılmasının əsas məqsədi iri kapitalı yığmaq, həmin bankların dövriyyə vəsaitinin, nizamnamə kapitalının, kredit portfelinin yüksək olmasına çalışmaq olmalıdır. Belə olarsa, banklar insanlara kreditləri də aşağı faizlə verə bilərlər. Azərbaycan 2015-ci ildə iki dəfə devalvasiyaya gedib. Bu faktor da bank sisteminə ciddi təsir göstərib. Yəni bank sisteminin özünün də bu gün köməyə ehtiyacı var".

**Qeyd edək ki, bir müddət əvvəl Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov zəif, problemi olan bankların sistemdən uzaqlaşdırılmasının vacibliyini vurğulayıb. Onun sözlərinə görə, ilkin mərhələdə sistemi tərk edən banklar ödəmə qabiliyyətini itirənlərdir:** "Maliyyə sektorunda konsolidasiya problemləri həmişə diqqət mərkəzində olub. Bağlanmış banklara diqqət yetirsək görərik ki, onların ölkənin sosial-iqtisadi sistemində rolu bir o qədər də böyük deyil. Əksinə, maliyyə sabitliyi üçün problemlər yarada bilərdi". **E.Rüstəmov bildirib ki, onun rəhbərlik etdiyi qurum bir neçə banka birləşmək üçün 1 ay vaxt verib:** "Bu proses başa çatmalı və onlar vahid banka çevrilməlidirlər".

**❑ RÖYA**

# Dollar kreditləri məsələsi dalana dirənib

## Ekspertlər hökuməti məsuliyyəti üzərinə götürməyə çağırır, ancaq...



**Dollar kreditləri ilə bağlı problem həll olunmadan qalmaqdadır. Ekspertlər dəfələrlə vəziyyətdən çıxmaq üçün təkliflər versələr də, problem ciddiliyini qoruyur. Bu səbəbdən ölkədə geri qaytarıla bilməyən kreditlərin həcmi kəskin artıb. Üstəlik, bank sistemi daha da çətin duruma düşüb. Ekspertlər sonunda dövlətin məsələyə müdaxiləsini vacib sayırlar.**

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, problemin həllini tapmamasından hər iki tərəf, həm vətəndaşlar, həm də banklar uduzurlar: "Qərarsızlıqdan və hər hansı tədbirlərin görülməməsindən hər iki tərəf uduzur. Banklarda onsuz da problemlər var. Kreditlərin ikinci devalvasiyadan sonra geri dönməsi xeyli ləngiyib. Artıq problemli kreditlərin həcmi 1,5 milyard manata çatıb. Keçən ilin yanvarında bu rəqəm 900 milyon manat idi. Problemli kreditlər az qala iki dəfə artıb. Getdikcə də artmaqda davam edir. Hökumət məsələlərin normal həllini tapmaq istəmir, məsələni uzatmaqla hər iki tərəfdə problemlərin yaranmasına səbəb olur. Vətəndaşlar da gəlirlərini itirirlər. Ölkədə onsuz da iqtisadi aktivlik xeyli dərəcədə zəifləyib. İş yerləri bağlanır, gəlirlər azalır, kreditlərin ödənməsində problemlər yaşanır. Vətəndaşlar bunu ödəyə bilmirlər. Ona görə də hər iki tərəfi qane edə biləcək formul tapmağı hökumət bacarmalıdır. Hökumət həta aylar öncə, devalvasiyadan sonra bununla bağlı addım atmalı idi. Təəssüf ki, etmədi. Hazırda ölkə bankları çox ağır durumdadır. Xarici borcların həcmi kəskin artıb. Banklar da getdikcə müflis olur, bu sahədə problemlər artacaq. Banklar öz borclarının qaytarılmasında ciddi problemlərlə qarşı-qarşıya qalacaqlar. Vətəndaşlar da kreditlərini geri qaytarmaqda problem yaşayırlar. Ona görə də mütləq sonunda dövlət və Mərkəzi Bank müəyyən bir qərar verməlidir. Bu qərar iki tərəfi də az da olsa qane edən bir qərar olmalıdır. Bu problemdən çıxış yollarının tapılması yönündə bir yol xəritəsi olmalıdır. Hökumət nə qədər çox gecikirsə, bunun dövlət büdcəsinə yükü daha çox olacaq. Dövlət yardımı olmadan bu problemin həlli mümkün olmayacaq. Ya problemli kreditlər silinməlidir. Ya banklara müəyyən yardımlar olunmalıdır. Banklara ən azından uzunmüddətli və çox aşağı faizli kreditlər vermək olar. Valyuta kreditləri vermək olar ki, borcların ödənilsinlər. Vətəndaşlarla razılığa gəlsinlər, kredit müqavilələsi şərtlərinə yenidən baxsınlar və sair. Heç bir qərar verilmədikcə, məsələ uzandıqca, həm bankların problemləri artacaq, həm vətəndaşlar kreditlərin ödənilməsində daha çox problem yaşayacaqlar. Ödənişlər daha çox azalacaq. Ona görə də bu məsələnin çözülməsində dövlət büdcəsindən başqa mənbə yoxdur. Dövlət büdcəsinin özündə də problemlər yaşanır. Ölkənin gəlirləri xeyli dərəcədə azalıb. Çıxılmazlığa oxşar bir vəziyyət yaranıb. Səbəbi odur ki, ilk devalvasiyadan sonra müəyyən yol xəritəsi işlənib hazırlanıb təqdim olunsaydı, vəziyyət bu qədər kəskinləşməzdi. Zaman keçdikcə bu problemlər daha da artacaq".

Qeyd edək ki, ötən il ərzində valyuta ilə olan problemli borclar 500 milyon manatdan çox artıb. **Ekspert Qubad İbadoğlu** bildirib ki, hökumət təcili tədbirlər görməsə, bu problem bütövlükdə bank sektorunu çökdürə bilər. Mərkəzi Bankın açıqladığı son məlumata görə, bu ilin əvvəlinə iqtisadiyyata cəmi kredit qoyuluşunda vaxtı keçmiş problemli kreditlərin ümumi məbləği 1,5 milyard manatı ötüb ki, onun da 55,7 faizini manatla, 44,3 faizini isə dollar ilə olan kreditlər təşkil edib. Ötən ilin əvvəlində bu göstərici 80 faizin 20 faizə nisbətində böyük üstünlüklə manatın xeyrinə idi. Problem borcların valyuta növləri üzrə struktur təhlili göstərir ki, ümumi həcmdə il ərzində baş verən 50 faizlik artımda valyuta ilə olan problemli borcların payı 95 faizdən çoxdur. 1 il ərzində valyuta ilə olan problemi borcların həcmi 500 milyon manatadək artıb. Q.İbadoğlu qeyd edib ki, əgər valyuta ilə olan borclar problem həll olunmazsa, son nəticədə bu səbəbdən problemli kreditlərin cəmi kreditlərdə payı kəskin artacaq. Bu, bütövlükdə bank sektorunun ziyanının çoxalmasına və maliyyə mötəbərliliyinin azalmasına gətirib çıxaracaq.

**Ekspert Vüqar Bayramov** isə qeyd edib ki, Mərkəzi Bankın "maliyyə intizamının pozulacağı" şüarı ilə kredit götürənlər üçün yaranan əlavə 3,8 milyard manat xərci kompensasiya etməməsi təəssüf doğurur: "Problemli kreditlərinin həcmi artır və bu da bank sektorunda yeni defolt təhlükəsi yarada bilər".

**Ekspert Rəşad Həsənov** isə qeyd edib ki, hökumət təkcə dollarla yox, milli valyuta ilə olan kreditlərin ödənilməsi ilə bağlı da güzəştlər düşünülməlidir. Əhalinin gəlirləri azalıb, iş yerləri bağlanıb, işsizlik artıb. Manatla olan kreditlərin ödənilməsində də problemlər var. İqtisadi böhran vətəndaşların günahı deyil, bu baxımdan hökumət əhali üçün güzəştlər tətbiq etməlidir. Milyardlarla vəsait ölkəyə daxil olub və bu vəsaitlər Maliyyə Nazirliyi ilə Mərkəzi Bank tərəfindən xərclənib. Maliyyə pozuntusundan o zaman danışmaq lazım idi. Dünya təcrübəsi onu göstərir ki, böhran durumunda hökumət məsuliyyəti öz üzərinə götürür. Azərbaycanda isə bu, baş vermir"- deyə ekspert vurğulayıb.

**❑ RÖYA**

YENİ MÜSAVAT
N 34 (6355) 13 fevral 2016

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən Azərbaycan vətəndaşlarının dini radikal silahlı birləşmələrə və ölkə hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb edilmələrinə qarşı kompleks mübarizə tədbirləri davam etdirilir.**

# Azərbaycanda 8 İŞİD-çi tutuldu

## Suriya və İraqda terrorçu şəbəkədə döyüşmüş şəxslərin barəsində həbs-qətimkan tədbiri seçilib

DTX-nın İctimai əlaqələr şöbəsindən Musavat.com-a verilən məlumata görə, həyata keçirilmiş son istintaq-əməliyyat tədbirləri nəticəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin yaradılmasında və fəaliyyətində iştirak etmə, onları döyüş sursatı və əsgəri ləvazimatla təchiz etmə, dini düşmənçilik zəminində ölkə hüdudlarından kənarda hərbi təlimlər keçmə, silahlı münaqişələrdə iştirak etmə və digər hüquqazidd əməllərinin törədilməsində şübhəli bilinən Azərbaycan Respublikasının vətəndaşları - Adiyev Orxan Mehdi oğlu, Muxtarov İbad Abbasəli oğlu, Abdullayev Məhəbbət Şərif oğlu, Bədəlov Rasim Asəf oğlu, Əzizov İlahi Rəşaiq oğlu, Məmmədov Zöhrab Mümbariz oğlu, Abdullazadə Zərbəli İsgəndər oğlu və Marfin Vladimir Yevqenyeviç saxlanılıblar.

Zöhrab Məmmədov Suriya ərazisindəki «Mühacir Ansar», İbad Muxtarov isə İraqdakı «Muvahidd camaatı» qanunsuz silahlı birləşmələrin tərkibində hərbi əməliyyatlarda fəal iştirak edib və döyüşlərdə yaralanıb.

Müəyyən edilib ki, Orxan Adiyev, İbad Muxtarov, Məhəbbət Abdullayev, Rasim Bədəlov, İlahi Əzizov, Zöhrab Məmmədov, Zərbəli Abdullazadə və Vladimir Marfin 2012-2015-ci illər ərzində qeyri-qanuni yollarla Suriya Ərəb Respublikasının və İraq Respublikasının ərazisinə keçiblər. Onlar həmin dövlətlərin ərazisində qanunsuz fəaliyyət göstərən "İslam dövləti (İŞİD)" və digər terrorçu təşkilatların, eləcə də başqa qanunsuz silahlı birləşmələrin tərkibində radikal dini və hərbi təlimlər keçib, müxtəlif növ odlu silahlardan istifadə təcrübəsinə yiyələniblər. Təlimlər başa çatdıqdan sonra onlar Suriya və İraq ərazisində sabit terrorçu və digər qanunsuz silahlı birləşmələrin tərkibində hərbi əməliyyatlarda və döyüşlərdə iştirak ediblər.

Zöhrab Məmmədov Suriya ərazisindəki lMühacir Ansar», İbad Muxtarov isə İraqdakı «Muvahidd camaatı» qanunsuz silahlı birləşmələrin tərkibində hərbi əməliyyatlarda fəal iştirak edib, bu zaman yaralanaraq müxtəlif bədən xəsarətləri alıblar.



Həmçinin müəyyən edilib ki, keçmiş SSRİ silahlı qüvvələrinin xüsusi təyinatlı dəstələrində xidmət etmiş, hərbi sahədə xüsusi biliklərə malik olan Vladimir Marfin qeyri-qanuni yollarla Suriya ərazisinə keçirilərək «Azəri camaatı» qanunsuz silahlı birləşməsinə cəlb edilən Azərbaycan vətəndaşlarına odlu silahlardan istifadə və döyüş taktikası üzrə təlimlər keçib, onları müxtəlif şərtlər altında döyüşə hazırlayıb, Suriyada fəaliyyət göstərən qanunsuz silahlı birləşmələri ərzaq və hərbi əməliyyatlar üçün zəruri olan digər ləvazimatlarla təchiz edib.

Adiyev Orxan Mehdi oğlu, Muxtarov İbad Abbasəli oğlu, Abdullayev Məhəbbət Şərif oğlu, Bədəlov Rasim Asəf oğlu, Əzizov İlahi Rəşaiq oğlu, Məmmədov Zöhrab Mümbariz oğlu, Abdullazadə Zərbəli İsgəndər oğlu və Marfin Vladimir Yevqenyeviç şübhəli bilindikləri cinayət əməllərinə görə təqsirləndirilən şəxs qismində cəlb olunaraq məhkəmənin qərarları ilə barələrində həbs qətimkan tədbirləri seçilib.

**Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti bir daha Azərbaycan Respublikasının vətəndaşlarını hər hansı formada qanunsuz silahlı birləşmələrə cəlb edən şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb ediləcəkləri barədə xəbərdarlıq edir və onların radikal dini ideoloji təsiri altına düşmüş Azərbaycan Respublikasının vətəndaşlarını belə qanunsuz silahlı birləşmələrə qoşulmamağa çağırır.**

# Dustağın əlinə süpürgə verməyin anlamı...

## İsa Əzizovu kimlər və niyə "sındırıb"?

**Bir qrup idmançı dostu ilə yanacaqdoldurma məntəqəsinə gələrək orada operator və mühafizə xidmətlərini yerinə yetirən şəxsləri döyən İsa Əzizovun həbsxana fotoları yayılıb. Həmin fotolarda İ.Əzizovun türmənin həyətini süpürdüyü qeyd olunub.**



Bu isə artıq ictimaiyyətdə geniş müzakirələrə səbəb olub. Bunu bir "bərkgedən"in məqsədli şəkildə "sındırılması", bunun mediaya ötürülməsi kimi qiymətləndirən də var, baş verənləri haqsızlıq adlandıran da. Maraqlıdır ki, bu, ilk belə hadisə deyil. Bir neçə il öncə 30 aprel Azərbaycan Dövlət Neft Akademiyasının ildönümü ilə bağlı anım yürüşü zamanı saxlanılaraq, 10 sutka inzibati həbsə məhkum edilən NİDA Vətəndaş Hərəkatının İdarə Heyətinin üzvü Turqut Qəmbər, AXCP Gənclər Komitəsinin sədri Əbülfəz Qurbanlı və Azad Gənclik Təşkilatının üzvü İlkin Rüstəmzadənin(onlar inzibati həbsə məhkum edilmişdilər-S.T) cəzaçəkmə müəssisəsində çəkilmiş şəkilləri yayılmışdı. Şəkillərdə gənclər qaldıqları kameralarda təmizlik işləri apararkən və müəssisənin həyətində işləyərkən görüntülənmişdilər.

Həmin vaxt məlum olmuşdu ki, yayılan şəkillər gizlin çəkilib. Bunu edən isə saxlanma məntəqəsinin işçiləri olub. Şəkillərin mediaya ötürülməsi isə məqsədsiz olmayıb. Bununla guya ki, gəncləri sındırmaq məqsədi güdülmüşdü. Bundan başqa, türmədə gənclərin saçını da zorla kəsmişdilər. Sözügedən zorakılıq da eyni məqsədə xidmət edirdi - gəncləri ictimai sektorda nüfuzdan salmağa. Baxmayaraq ki, onların həbs motivi bəlli idi və verilən "cəza" effekt yaratmadı.

Bəs əslində bu cür cəza növlərinin məqsədi nədir? Oğru dünyasının qaydaları, türmənin daxili nizam-intizamı, yoxsa "yuxarılardan" gələn tapşırıq?

**Eks-siyasi məhbus Əvəz Zeynallı** bildirdi ki, ümumiyyətlə, həbsxananın içərisində heç cür şəkil çəkmək imkanı yoxdur: "Təsəvvür edin ki, bunun üçün rəisdən də yuxarı səlahiyyət sahibi göstəriş verməlidir. Əgər İsa Əzizovun şəklini çəkiblərsə, xüsusən də iş gördüyü yerdə, bu, ciddi mesajdır, "onu sındırdıq" deməkdir. Onun ictimailəşdirilməsi isə məqsədlidir. Özü də İsa Əzizovdan daha çox, onun böyüklərinə. Onlara demək istəyirlər ki, cəmiyyətdə bu cür özbaşınalıq edənləri bu formada cəzalandıracağıq".

**Müsahibimizin sözlərinə görə, həbsdəki idealistlər, jurnalistlər, bir sözlə, siyasi məhbuslar o işləri görmürlər:** "Onlar hətta xırdaca bir daş parçasını belə kənara atmırlar. Bura oğru dünyasının üzvləri də daxildir. Onlar da bunu etmirlər. Onu etməməyin üzündən günü zəhərə çevrilən məhbuslar olub. Türmədə əlinə süpürgə verilmək çox ciddi aşağılanmaqdır. Bunu etmədiyinə görə Qobustana göndərilən, ən ağır zona yollanan, özünü doğrayan məhbuslar olub. Bu idmançını isə xüsusi alçaldıblar. Şəklini çəkib, yayıblar. Burada söhbət Pentensiar Xidmətdən, onun arxasındakı gücün nişanəsindən gedir. Bir güc başqa gücə deyir ki, biz sizi belə sındırırıq və sındıraraq".

**Kriminal aləmə yaxın olan bir şəxs isə deyir ki, İ.Əzizovun bu şəkildə "sındırılması" yanacaqdoldurma məntəqəsində operatoru döyməsinə, yaxud başqa səbəblərə görə olmaya bilər:** "Bu daha çox İsa Əzizovun daha əvvəl bir qadını döyməsi ilə bağlı ola bilər. Çünki "içəridə" də qadın döyənlərə yaxşı baxmırlar və "sındırırlar"".

❑ **Sevinc TELMANQIZI**

# Prezidentin izlədiyi veriliş bağlandı

## Arif Alışanovun AzTV-də ağıllı adamlara, sanballı verilişlər hazırlayanlara qənim kəsildiyi bildirilir



Arif Alışanov

**2013-cü ildən Azərbaycan Dövlət Televiziya kanalının efirində yayımlanan "Parlaq Zəka" verilişinin çəkilişləri və yayımı dayandırılıb.**

Oxu.az xəbər verir ki, fevralın 9-da verilişin rəsmi "Facebook" səhifəsində aşağıda qeyd olunan mətn yerləşdirilib.

Mətndən göründüyü kimi, hal-hazırda verilişin oyunları yayımlansa da, verilişin çəkiliş mövsümü başa çatmadan dayandırılma səbəbi əsaslı şəkildə göstərilməyib.

"Hörmətli tamaşaçılar, "Parlaq Zəka" verilişinin çəkilişləri və efirdə yayımlanması təxirə salınır.

2013-cü ildən "Parlaq Zəka" intellektual verilişi efirdə yayımlanmaqdadır. Bu müddət ərzində müxtəlif ali təhsil müəssisələrindən 6 tələbə qalib olmuş, 2 tələbə xaricə təhsil almağa göndərilmişdir. Nəzərinizə çatdırmaq istərdik ki, 2016-cı ilin mart ayından etibarən nəzərdə tutulan çəkiliş və efirdə yayımlanma təxirə salınır. Növbəti çəkiliş ilə bağlı əlavə məlumat veriləcək", - deyə məlumatda qeyd olunub.

Maraqlı məqam odur ki, yanvarın 29-da Prezident İlham Əliyev Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşdə bəyəndiyi, dəstəklədiyi və şəxsən izlədiyi televiziya verilişləri arasında "Parlaq Zəka"nı da vurğulamışdı.

"İntellektual oyunların Azərbaycanda keçirilməsi və xüsusilə televiziya vasitəsilə göstərilməsi çox böyük effekt verir. Misal üçün, "Nə? Harada? Nə vaxt?", "Xəmsə", ondan sonra "Brain Ring" - onları mən indi vaxtaşırı televiziyada izləyirəm. Bundan başqa, "Parlaq zəka", "Mən azərbaycanlıyam". Deyə bilərəm ki, bir çox kanallarda intellektual oyunlar keçirilir. Bir çox yaxşı verilişlər var", - deyə İlham Əliyev qeyd etmişdi.

Bundan əlavə, 2009-cu ildə akademik Ramiz Mehdiyevin efir problemlərinə həsr olunmuş məqaləsində adı əks olunmuşdu.

Layihənin pərəstişkarları da baş verənlərə münasibət bildiriblər. Sosial şəbəkələrdə #YaşaParlaqZəka haştaqı altında gənclər verilişə dəstək sözlərini yazırlar.

Verilişin çəkilişinin maliyyə problemləri ilə əlaqədar dayandırıldığı iddia olunur.

**Dünən bu xəbərin ardınca müsavat.com-a maraqlı bir informasiya da daxil oldu. Mənbə qeyd edir ki, AzTV-nin rəhbəri Arif Alışanov son vaxtlar qəribə bir "xəstəliyə" düçar olub**: "Bu adam AzTV-də ağıllı kadr, sanballı proqram hazırlayan adam görəndə onu düşmən gözündə görür. Bu adam dərhal belə fikrə qapılır ki. həmin şəxsin ondan ağıllı olduğunu yuxarılarda bilsələr, onu AzTV-yə rəhbər qoyarlar. Ona görə də bir neçə sanballı kadrı buradan uzaqlaşdırıb. İbrahim Məmmədovu da Arif Alışanov məhz özünə rəqib hesab etdiyi üçün qaraladı və nəhayət kanaldan uzaqlaşdırdı ".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 34 (6355) 13 fevral 2016



# Sülh anlaşmasına ən böyük təhlükə - status-kvo...

## Yeni Qarabağ savaşı daha çox kimin maraqlarına cavab verir? Status-kvonu savaşsız dəyişmək üçün səylər o vaxt səmərə verəcək ki...

**Son zamanlar Dağlıq Qarabağ münaqişəsi zonasında yeni müharibənin mümkünlüyü barədə xəbərdarlıqlar tez-tez səslənir. Bu qəbildən proqnozlar çox vaxt həm də gərginləşən Rusiya-Türkiyə və Rusiya-NATO (ABŞ) münasibətləri fonunda irəli sürülməkdədir. Siyasi təhlilçilər xüsusən də Moskvanın bölgəni qarışdırmaq imkanlarının böyük olduğunu və bunda maraqlı ola biləcəyini qeyd edirlər.**

Səbəblər qismində bir neçə amil sadalanır: o sıraya daxildə ağırlaşan iqtisadi durumdan ictimai diqqəti yayındırmaq, həmçinin, Qərbin və Türkiyənin bölgədə mümkün təsirlərini zəiflətmək üçün Güney Qafqazda geridönməz şəkildə möhkəmlənmək planlarına qədər müxtəlif hədəflər aid edilir. Təbii ki, Kremlin yeni Qarabağ müharibəsini alovlandırmaq imkanları da bəlli səbəblərdən hamıdan çoxdur.

Bunu sözsüz ki, Qərbdə - Avropa və ABŞ-da da yaxşı anlayır, ciddiyə alır və o üzdən vəziyyətin daha da gərginləşməməsi üçün çalışırlar. Konkret olaraq ATƏT-in Minsk Qrupunun həmsədri kimi ABŞ-ın təmas xəttində monitorinqi gücləndirmək, snayperləri yığışdırmaq və qarşılıqlı etimad tədbirlərini gücləndirmək yönündə neçə vaxtdır səylər göstərir, münaqişə tərəflərinə vaxtaşırı çağırışlar edir.

Bu da ondan xəbər verir ki, Vaşinqton yeni müharibə sarıdan ciddi şəkildə əndişəlidir və Qarabağ probleminin həlli uzansa da heç olmasa, mövcud-statusun daha təhlükəli səmtə dəyişməməsinə çalışır. Bu mövqeyi iki ABŞ rəsmisinin eyni gündə verdiyi açıqlamadan da aydın görmək mümkündür.

***

"ABŞ ATƏT-in Minsk qrupunun həmsədri kimi Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsipləri, BMT Nizamnaməsi və Helsinki yekun aktı əsasında danışıqlar yolu ilə həllinə nail olmaq üçün tərəflərlə işləməyə davam edəcək". Bunu ABŞ-ın ATƏT yanındakı Daimi Nümayəndəliyinin rəhbəri Daniel Bayer ATƏT Daimi Şurasında çıxışı zamanı deyib.

**O, qoşunların təmas xəttində və Ermənistan-Azərbaycan sərhədində zorakılıq hallarının son bir neçə ayda artdığını təəssüflə qeyd edərək deyib:** "ABŞ Minsk Qrupunun məsələ ilə bağlı narahatlığını bölüşür və dinc əhalinin xəsarət almasına səbəb olan minaatan və digər ağır texnikadan istifadəni pisləyir. Biz həmsədrlərin tərəflərə tezliklə zorakılığın azaldılması və insanların müdafiəsinə yönələn addımların atılması ilə bağlı çağırışına dəstək veririk. Status-kvo dözülməz və qəbuledilməzdir. Biz tərəflərə bir daha deyirik ki, münaqişənin hərb yolu ilə həlli ola bilməz. Birləşmiş Ştatlar həmsədrlərin Ermənistan və Azərbaycan prezidentləri arasında dialoqun intensivləşməsinə təkan verən və sülh yolu ilə münaqişənin həlli prosesində irəliləyiş əldə etmək üçün strukturlu danışıqlar aparmaqla bağlı səylərini dəstəkləyir".




**Öz növbəsində ABŞ-ın Ermənistandakı səfiri Riçard Mils Qarabağ probleminin uzunmüddətli həllinin hərbi yolla mümkün olmadığını söyləyib. Bu barədə o, Facebook-akı on-line brifinqi zamanı Dağlıq Qarabağa dair danışıqlar prosesini şərh edərkən bildirib.**

"Təmas xəttində gərginliyin artması və ritorika ABŞ hökumətində dərin narahatlıq doğurur. Mənim fikrimcə, təmas xəttində gərginlik yanlış hesablamalar və ya adi səhv ucundan mümkündür. Məhz bu səbəbdən Minsk Qrupu həmsədrləri hər iki tərəfi gərginliyi aradan qaldırmaq üçün addımlar atmağa və situasiyaya nəzarət üçün mexanizmlər formalaşdırmağa çağırır" - qeyd edib diplomat.

**Səfirin sözlərinə görə, ötən ilin dekabrında Berndə baş tutan Əliey-Sərkisyan görüşündə məhz bu barədə söhbət gedib.** "Amerikalı həmsədr, səfir Ceyms Uorlik başqa həmsədrlərlə birgə dialoqu irəli aparmaq üçün birgə işləyir" - əlavə edib Riçard Mils.

***

**Göründüyü kimi, Amerika tərəfində təmas xəttindəki gərginliyin genişmiqyaslı əməliyyatlara keçə biləcəyindən dolayı narahatlıq var. Sözsüz ki, bu narahatlıq öncəliklə Moskvanın erməni tərəfinə həlledici təsir imkanları ilə bağlıdır. Heç şübhəsiz, şimal qonşumuz Güney Qafqazda yeganə legitim hərbi bazalarının olduğu Ermənistanın əli ilə istənilən an təxribat törədə və "bulanıq suda balıq tutmağa" həvəslənə bilər. Mövcud status-kvonu dinc yolla dəyişmək yönündə ən böyük əngəl də elə budur - Rusiya faktoru. Demək, ən əvvəl bu faktor neytral hala gətirilməlidir.**

# Ermənilərin Qars sənədi ilə bağlı arzusu gözündə qalacaq

## Tanınmış rusiyalı politoloq: "Bu söhbətlər həmişə məni əsəbləşdirib..."



Andrey Yepifançev

**İşğalçı Ermənistan Rusiya-Türkiyə münasibətlərinin pisləşməsini fürsət bilərək yenidən yaxın tarixi təftiş edərək, Moskva və Qars müqavilələrinin ləğvi sevdasına düşüb. Düşmən tərəf ümid edir ki, Moskva Ankaraya növbəti pislik eləmək üçün belə bir addıma gedə bilər və nəticədə o da qazanar, Türkiyəyə qarşı ərazi iddiaları yeni məzmun kəsb edir.**

Amma ermənilər unudur ki, hətta SSRİ ilə NATO üzvü Türkiyə arasında ən kəskin münasibətlərin mövcud olduğu illərdə belə Kreml belə addıma getməyib, o ki ola indi - iki dövlət arasında diplomatik, iqtisadi əlaqələrin pis-yaxşı davam elədiyi hazırkı dönəmdə. Yəni "qırmızı xətt" məsələsi.

Bu məqam vaxtaşırı praqmatik rusiyalı analitiklər tərəfindən də diqqətə çatdırılmaqla ermənilər məyus edilməkdədir.

Son olaraq bu haqda fikirlərini Facebook səhifəsində politoloq Andrey Yepifançev paylaşıb. "Ermənistanın Moskva müqaviləsinə görə öz tarixi ərazilərinin yarıdan çoxunu itirməsi və bunu türklərə məhz Rusiyanın verməsi haqqında söhbətlər məni həmişə əsəbləşdirib" - yazıb ekspert.

Politoloqa görə, ermənilərin öz tarixi əraziləri saydığı torpaqları Türkiyəyə ermənilərin özləri veriblər. Sitat: "Gümrü müqaviləsinə əsasən, ermənilərin özləri İrəvan ətrafında kiçik ərazi istisna olmaqla hər şeyi türklərə verdilər. Moskva müqaviləsinə görə isə Rusiya, əksinə, ermənilərin türklərə verdiyi ərazilərin bir hissəsini Sovet Ermənistanının tərkibinə qaytarıb. İndiki Ermənistan hazırda məhz həmin torpaqlarda bərqərardır".

Yada salaq ki, bir neçə gün öncə Rusiya Dövlət Dumasının deputatları - Rusiya Kommunist Partiyasının Mərkəzi Komitəsinin sədr müavini Valeri Raşkinlə partiyanın katibi Sergey Obuxov 1921-ci ilin martın 16-da Türkiyə ilə Rusiya Sovet Sosialist Federativ Respublikası arasında imzalanan dostluq və qardaşlıq haqqında razılaşmanın ləğvi təşəbbüsü ilə çıxış ediblər. Onlar bundan ötrü prezident Vladimir Putin və Xarici İşlər naziri Sergey Lavrova müraciət ünvanlayıblar.

Moskva müqaviləsi Azərbaycandan ötrü də mühüm əhəmiyyətə malikdir. Müqavilənin şərtlərinə əsasən, Naxçıvanın müdafiəsini Türkiyə öz üzərinə götürüb. Üstəlik, müqavilənin başqa bir maddəsinə əsasən, Azərbaycan bu ərazini heç kimə güzəştə gedə bilməz.

Gümrü müqaviləsi isə Moskva və Qars müqavilələrindən öncə 1920-ci il 3 dekabr tarixində Türkiyə və Ermənistan arasında imzalanıb. Müqaviləyə görə, Ermənistan hökuməti Türkiyə torpaqlarına iddiasından əl çəkməli, Ermənistan ərazisindən qovulmuş müsəlmanların qayıtması üçün şərait yaratmalı idi. Müqavilə həmçinin Ermənistan ilə Türkiyə arasında sərhədi də müəyyən edir.

Bu müqavilənin şərtlərinə əsasən, Ermənistan sayı 1500 nəfərdən çox olmayan bir orduya malik olmalı və bu ordu 8 ədəddən çox topa, 20 ədəddən çox pulemyota malik ola bilməzdi. Ermənistan həmçinin, "Sevr müqaviləsi"nin qüvvədən düşməsini qəbul etməli və öz nümayəndə heyətlərini Avropadan və ABŞ-dan geri çağırmalı idi. Müqavilənin başqa şərtlərinə görə, Ermənistan hökuməti Türkiyəyə qarşı və yaxud Türkiyənin maraqlarına zidd olan bütün müqavilələri, qüvvədən düşmüş elan etməli, Türkiyə Ermənistan dəmir yollarının nəzarətini öz əlinə almalı və Ermənistan ərazisində "hərbi tədbirlər görmək" imkanını əldə etməli idi. Müqavilə imzalandığı gündən 1 ay sonra ratifikasiya edilməli olsa da, daşnaklar bunu yerinə yetirmirlər. Hakim partiya razılaşmadan bir neçə saat sonra sovetlərlə müqavilə imzalayır və Ermənistan SSR yaradılır. Sonralar tərəflər arasında sərhədlərin müəyyənləşdirilməsi Qars və Moskva müqavilələri ilə nizama salınır.

**Əgər bu müqavilələrdən hansısa biri etibarsız sayılsa, o halda Gümrü müqaviləsi təzədən gündəmə gələcək. Lakin siyasi müşahidəçilər bunu mümkünsüz sayırlar. Onların qənaətincə, Moskva və Ankara münasibətlərinin daha da kəskinləşməsində deyil, yumşalmasında maraqlıdır. Nədən ki, belə vəziyyət hər iki tərəfə ciddi ziyan vurur. Odur ki, ermənilərin Qars sənədi ilə bağlı arzusu gözündə qalacaq. Elə uydurma soyqırımı inkara görə Dövlət Dumasında qanunun qəbuluna bağlanan ümidlər də.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 34 (6355) 13 fevral 2016

# Evli kişinin hamamda yad qadınla meyiti tapıldı

**Qusarda iki nəfərin dəm qazından boğularaq ölməsinin bəzi təfərrüatları bəlli olub. ANS PRESS-in məlumatına görə, bədbəxt hadisə Qusarın Hil kəndində qeydə alınıb. Bu gün səhər 09 radələrində Hil kəndində yeni tikilmiş, amma hələlik yaşayış olmayan evin hamamında evin sahibi, 25 yaşlı Rəşad Mustafayevin və 32 yaşlı Zoya Məhsimova Dünyaməddin qızının meyitləri tapılıb.**



Rəşad hələlik hadisə baş verən evə köçmədiyindən 2 uşağı və həyat yoldaşı ilə atasının evində yaşayırdı. Oğlanın Bakıda olan valideynləri oğullarının gecə evə gəlmədiyindən xəbər tutub qonşulardan rayonda tikilən yeni evə baxmalarını xahiş ediblər. Mustafayevlərin təzə evinə gələn qonşu evin hamamında Rəşadın və tanımadığı gənc qadının meyitlərini görərək dərhal polisə xəbər verib. Mərhumların meyiti hamamın şüşəsi sındırılaraq çıxarılıb.

Zoya Məhsimovanın həyat yoldaşından boşandığı və bir uşaq anası olduğu bildirilir.

ANS-in çəkiliş qrupun hadisə yerində olarkən mərhumun qohumları çəkilişə icazə verməsələr də bildiriblər ki, onlar dəm qazından boğulublar.

Rəşad Mustafayevin dayısı Şahin Məmmədrzayevin sözlərinə görə, onlar hadisə haqda səhər saatlarında eşidiblər: “Qazdan olub. Təmiz qaz olsaydı elə ola bilməzdi”.

Məlumata görə, Rəşad Mustafayevin atası hamamdakı su qızdırıcının hava çıxan borusuna kağız qoyub ki, içəriyə heç nə girməsin. Onların elə bu səbəbdən hamamda dəm qazından boğulduqları ehtimal edilir. Hadisə yerində olan Qusar qaz istismarı sahəsinin rəisi Azər Abbasov bütün bunların araşdırma başa çatandan sonra aydın olacağını deyib.

**Meyitlər Səhiyyə Nazirliyinin Məhkəmə tibbi ekspertizası və patoloji anatomiya birliyinin Qusar şöbəsinə aparılıb. Qusar prokurorluğu 2 nəfərin ölüm faktının araşdırılmasına başlayıb.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Bakıda tapılan uşağın anası tərəfindən küçəyə atıldığı məlum olub

**Daxili İşlər Nazirliyi Bakıda küçədə tapılan azyaşlı ilə bağlı yayılan məlumatlara aydınlıq gətirib. Nazirliyin mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə APA-nın sorğusuna cavabında bildirib ki, ötən gün axşam saatlarında Xətai rayonu ərazisində tapılan azyaşlı oğlan uşağı olub və onun 2 yaşı var:**

“Küçədə tapılan uşaq sakinlər tərəfindən Xətai Rayon Polis İdarəsinin 37-ci Polis Bölməsinə təhvil verilib. Araşdırmalar zamanı tapılan uşağın 2014-cü il təvəllüdlü Yusif Tofiq oğlu Məmmədov olması müəyyən edilib. Həyata keçirilən tədbirlər nəticəsində uşağın anası İlhamə Məmmədova polisə dəvət olunub. Polis əməkdaşlarının uşağın anası ilə apardığı profilaktik söhbət əsnasında məlum olub ki, o azyaşlını özü bilərəkdən küçəyə atıb. İmtina etməsinə səbəb kimi isə o uşağa baxa bilmədiyini göstərib. Məhz bu səbəbdən də o uşağı küçəyə buraxıb və hansısa imkanlı bir adamın onu taparaq aparmasını, uşağa sahib çıxmasını istəyib”.

O.Mansurzadə bildirib ki, küçədən uşağın tapılması barədə sosial şəbəkələrdə məlumat yayılandan dərhal sonra bir neçə nəfə polisə ərizə ilə müraciət edərək həmin uşağı himayəsinə götürmək istəyib. Polis əməkdaşları həmin şəxslərə bu proseduran qaydalarını izah edərək onları aidiyyəti qurumlara müraciət etmələri barədə xəbərdarlıq edib. Sonradan uşağın anası İlhamə Məmmədova qərarını dəyişib və övladına sahib çıxacağını bildirərək uşağı özü ilə aparıb".

O.Mansurzadə həmçinin qeyd edib ki, araşdırmalar zamanı o da məlum olub ki, İ.Məmmədovanın bundan başqa daha bir övladı var və 7 yaşlı həmin uşaq hazırda Bakı şəhərindəki internat məktəblərindən birində saxlanılır.

**Qeyd edək ki, ötən gün axşam saatlarında sosial şəbəkələrdə Bakının Xətai rayonu ərazisində, “Qara Şəhər” adlanan yerdə küçədən ağlayan qızın tapılması barədə məlumatlar yayılıb.**


**Nərimanov Rayon Məhkəməsinin həyətində *(Montində)* 2 maşınlıq daş qaraj satılır**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuzdur. Sənədi var.**

**Telefon: (050) 264-49-99**




## Bakıda qohumunu zorlamaq istəyərkən bıçaqlanan kişi öldü

**Bakıda 16 gün əvvəl qohumu tərəfindən bıçaqlanan kişi xəstəxanada ölüb. Bakı şəhər Prokurorluğundan APA-ya verilən məlumata görə, yanvarın 27-də Bakı şəhər sakini, 32 yaşlı Aygün Ələkbərova yaşadığı evdə 1956-cı il təvəllüdlü Hökməli Fətəliyevə bıçaqla xəsarət yetirib. Faktla bağlı Xətai Rayon Prokurorluğundan Cinayət Məcəlləsinin 126.1-ci *(qəsdən sağlamlığa ağır zərər vurma)* maddəsi ilə cinayət işi başlanıb.**

Hadisəni törədən A.Ələkbərova Cinayət Məcəlləsinin həmin maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

H.Fətəliyev fevralın 11-də aldığı xəsarətdən xəstəxanada ölüb. Bu səbəbdən də başlanmış cinayət işi həmin məcəllənin 126.3-cü *(qəsdəm sağlamlığa ağır zərər vurma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda)* maddəsinə tövsif olunub.

Hazırda başlanmış cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Qeyd edək ki, qətlə yetirilən Hökməli Fətəliyev Aygün Ələkbərovanın həyat yoldaşının əmisidir. Aygün Ələkbərova ifadəsində, kirayə qaldığı evə sərxoş vəziyyətdə gələn qohumunu ona qarşı seksual xarakterli zorakılıq hərəkətləri etdiyi üçün bıçaqladığını bildirib.

## Bakıda silah alveri edən dəstə tutuldu

**Respublikanın daxili işlər orqanları cinayətkarlıqla mübarizə sahəsində növbəti əməliyyat tədbirləri həyata keçirib və nəticədə odlu silah-sursatın ölkəyə qaçaqmalçılıq yolu ilə gətirilməsi, eləcə də alqı-satqısı ilə məşğul olan cinayətkar dəstənin üzvləri zərərsizləşdirilib. Musavat.com-un məlumatına görə, Zəngilan Rayon Polis Şöbəsi (RPŞ) əməkdaşlarının Abşeron rayonu Masazır qəsəbəsində keçirdiyi əməliyyat nəticəsində Sabirabad rayon sakini, əvvəllər dəfələrlə məhkum edilmiş Cavid Hacıyev “Makarov” markalı tapançanı 8 ədəd patronu olan sandıqçası ilə birlikdə 2300 manata satmaq istəyən zaman saxlanılıb.**

C.Hacıyevin ətrafında aparılan araşdırmaların davamı olaraq Zəngilan RPŞ və Qazax RPŞ əməkdaşlarının birgə keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində ona həmin silahı verən dəstənin digər üzvü, Qazax rayon sakini, əvvəllər məhkum olunmuş Samir Məmmədov da tutulub. Araşdırmaların davamı olaraq müəyyən edilib ki, S.Məmmədov həmin silah-sursatı bu ilin fevral ayının 5-də “Niko” ləqəbli Gürcüstan vətəndaşından götürərək C.Hacıyevə çatdırıb. Əməliyyat tədbirlərinin davamı olaraq cinayətkar dəstənin daha iki üzvü, Qazax rayon sakinləri, əvvəllər məhum olumuş Tural Haqverdiyev və Raqif Hacıyev müəyyən edilərək saxlanılıblar.

**Qeyd edilən faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Hazırda cinayətin digər iştirakçılarının da tapılıb tutulmaları və məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.**


**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 34 (6355) 13 fevral 2016

# Bakıda qaz təchizatında fasilələr niyə yaranır?

## "Azəriqaz: "Hansısa mənzildə qaz problemi varsa, sakinlər bizə məlumat versinlər"

**Son günlər Bakının bir sıra rayonlarına *(Nizami, Binəqədi, Sabunçu, Xəzər, Suraxanı)* təbii qazın verilişində problemlər yaranır. Bu barədə musavat.com-a məlumat verən rayon sakinləri onu da qeyd ediblər ki, həmçinin verilən təbii qazın təzyiqində əvvəlki günlərlə müqayisədə azalma müşahidə olunur.**

Məsələni dəqiqləşdirmək üçün **"Azəriqaz" İB-nin mətbuat xidmətinin rəhbəri İbrahim Kərbalayevlə** əlaqə saxladıq. İ.Kərbalayev musavat.com-a açıqlamasında bildirdi ki, hazırda heç bir ərazinin qazla təchizatında problem yoxdur: "Haradasa qəza baş verdiyi üçün qaz təchizatı dayandırılan zaman bununla bağlı öncədən kütləvi informasiya vasitələri ilə məlumat veririk. Hazırda qazın təzyiqi ilə bağlı da heç bir problem yoxdur. Ümumiyyətlə, qeyd olunan rayonlar da daxil olmaqla heç bir yerdə qazın verilişi ilə bağlı çətinlik yoxdur. Əgər hansısa mənzildə qaz problemi varsa, sakinlər bizə məlumat versinlər. Əməkdaşlarımız həmin mənzilə gedərək, problemi aradan qaldırarlar".

**Buna baxmayaraq, son zamanlar SOCAR-ın Rusiyadan qaz istəməsi ictimaiyyətdə belə bir təsəvvür yaradıb ki, Azərbaycanda qaz qıtlığı yaşanır. Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev "IP Week" çərçivəsində jurnalistlərə açıqlamasında isə "Qazporm"dan qaz istəmələrinin səbəbini bu cür izah edib:**

"Bunun üzərində çalışırıq. İmkanlarımız var, çox sayda elektrik stansiyalarımız hazırda qazdan daha ucuz qiymətə olan mazutla çalışırlar. Maraqlarımız var. "Qazprom"a təkliflər irəli sürmüşük, cavab gözləyirik. "Qazprom"un verə biləcəyi istənilən həcmdən razıyıq. Laylara əlavə 3-4 milyard kubmetr qaz doldurmaq imkanlarımız var. Qiymətlərlə də əlaqədar problem yoxdur, formul üzrə alış həyata keçiririk".

Qeyd olunan məsələlərlə bağlı **Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban** musavat.com-a bildirib ki, Azərbaycanda rəsmi rəqəmlərə görə 1 milyard kubmetr qaz itkisi var:

"Artıq qış mövsümünü başa vururuq. Gördüyümüz kimi bu il qış ötən illə müqayisədə mülayim keçdi. Ölkəyə qazın verilişində də hansısa ciddi problem yaşanmadı. Lakin "Günəşli" yatağında baş verən faciəvi hadisə istənilən halda özünü SOCAR-ın hasilatında




və təbii qazda göstərdi. Rövnəq Abdullayevin Londanda verdiyi açıqlamaya görə, platformada hər gün 1.3 milyon kubmetr qaz hasil edilirdi. Nəzərə alsaq ki, hələ may ayına qədər platformada təmir işləri aparılacaq, bu isə o deməkdir ki, hadisənin təbii qaza təxminən 200 milyon kubmetr təsiri olacaq. Nəticədə isə ölkədə qaz defisiti yaranır və qənaət rejiminə keçməyə məcbur oluruq. Artıq gördüyümüz kimi şəhərdə işıqlar da söndürülür. Eyni zamanda bir məqama da diqqət etmək lazımdır ki, Azərbaycanda qaz itkisi var. Rəsmi rəqəmə görə, bu, 1 milyard kubmetrdir. Qeyd olunan rəqəm əslində çox böyükdür. İtkilərin böyük hissəsi isə regionların payına düşür. Çünki şəhərdə elektron sayğaclarla və buna müdaxilələr çox kiçik həcmdədir. Əsasən bu hal, bölgələrdədir. Bunun qarşısını almaq üçün əvvəllər ayda 1 dəfə sayğaclar yoxlanılırdısa, indi bunu hər on gündən bir etmək lazımdır. İkincisi, magistral qaz kəmərlərində, paylayıcı şəbəkələrdə sızmalara nəzarət etmək üçün nəzarətçilərin sayı artırılmalıdır. Onlar vizual formada nəzarət etməklə qaz itkisinin harada baş verdiyini araşdırsınlar. Əgər itkinin qarşısını heç olmasa yarıbayarı azaldarsaq, bu, Azərbaycan üçün çox önəmli olacaq".

❑ **Əli RAİS**

# Parfümeriya mağazalarında ciddi bahalaşma






## Azad İstehlakçılar Birliyinin sədri:
## "Kosmetika sənaye malları sektorunda ən çox çirklənmiş mallardır"

**Ətir və kosmetika vasitələrinin qiyməti bahalaşıb. Baş çəkdiyimiz bir neçə mağazada bunun şahidi olduq. Xatırladaq ki, hələ bir ay öncədən parfümeriya sahəsində ciddi bahalaşma olacağı deyilirdi. Satıcılar bahalaşma səbəbini dollarla aldıqları yeni gələn mallarla əlaqələndirdilər.**

"Neftçilər" metrostansiyası yaxınlığında baş çəkdiyimiz parfümeriya mağazasının satıcıları bir sıra firmaların məhsullarında artım olduğunu dedi: "Nə alacaqsınızsa, indi alın. Bir neçə gündən sonra bu qiymətə tapmayacaqsınız. Qiymətlərimiz bir az da qalxacaq. Bu gələn mallar yeni partiya olduğu üçün baha qiymətə satılır. Çünki dollarla alınıb".

Digər satıcı isə "İdeal" və "Sabina" mağazalarına baxanda onlarda daha ucuz mal olduğunu deyirdi.

Mağazada ən ucuz ətir 65 manat, ən bahalısı isə 350 manat idi. Əvvəllər 1 manata satılan "Golden Rose" dırnaq lakları indi 1 manat 50 qəpiyə satılırdı. Əvvəllər 12 manat 50 qəpiyə satılan "Mozaik" pudrası isə indi 15 manata satılırdı. "Golden Rose" firmasının da məhsullarının bahalaşmadığını deyən satıcı ailə qurmağa hazırlaşan gənclərin bu firmanın məhsullarından səbət yığdırmağın onlara 80 manata başa gələcəyini deyirdi. O, bunun ən ucuz səbət olacağını bildirdi. "Pupa" firmasına məxsus kosmetikalardan səbət isə 250 manata başa gəlir. "Burjua" firmasının da səbəti isə 300 manata başa gəlir. Qeyd edək ki, kosmetika səbəti yığdırmaq parfümeriya mağazasının adına, yerləşdiyi məkana görə fərqlənir. Belə ki, kosmetika səbətinə daxil olan kosmetikaları "İdeal"dan almaq daha yüksək məbləğ 600-1500 manat arası tələb edir. "Sabina Parfumery&Cosmetics" mağazalar şəbəkəsində isə bu qiymət daha fərqlidir-1200 manatdan başlayır.

Qeyd edək ki, mağazalarda bahalaşma ilə yanaşı bir sıra kampaniyalara da start verilib. "İdeal"da bir müddət öncə aktivliyi dayandırılmış endirim kartları yenidən bərpa olub. Həmçinin mağazada "3 al 2 ödə", "1+1" kampaniyalarına start verilib. Bütün bunların olmasına baxmayaraq, qiymətlər yenə də əl yandırırdı. Belə ki, "İdeal"da əvvəllər 105 manata satılan 100 ml "Dior Sauvage" ətrinin indi 60 ml-si 105 manata idi. Satıcı-



lar bahalaşmanın təbii olduğunu bildirir və dolların bahalaşması ilə əlaqələndirdilər.

"Sabina Parfumery&Cosmetics" mağazalar şəbəkəsində də eyni vəziyyət idi. Burada da endirim kampaniyası olsa da, qiymətlər yenə də baha sayılırdı. "Sabina Parfumery&Cosmetics" mağazalar şəbəkəsində digər mağazalardan fərqli olaraq daha az sayda endirim kampaniyaları həyata keçirilir. Bunu satıcıların özləri də təsdiq etdilər. Onlar endirim və hədiyyə kampaniyalarının az sayda olmasının səbəbini isə baş vermiş devalvasiya ilə əlaqələndirdilər və hər hansısa bir endirim kampaniyasının onlara sərfəli olmadığını bildirdilər. Ancaq hazırda cüzi də olsa müştəri cəlb etmək üçün müəyyən aksiyaların və endirim kampaniyalarının olduğunu dedilər. Mağazada özünə ətir seçən Leyla İbrahimova bu mağazalar şəbəkəsinin məhsullarının keyfiyyətindən razılıq etsə də, qiymətindən narazı idi: "Mağazadakı ətir və kosmetikaların keyfiyyətinə söz ola bilməz. Amma qiymətləri də çox bahadı. Endirim kampaniyaları daha yüksək çərçivədə olsaydı yaxşı olardı".

"28 May" metrostansiyası yaxınlığındakı parfümeriya mağazasında da bahalaşma müşahidə etdik. Onlar isə heç bir endirim olmadığını və "Sevgililər günü" ilə əlaqədar tələbat artdığı üçün qiymətlərin bir qədər yüksək olduğunu deyirdilər. Qeyd edək ki, ucuz qiymətə bir çox keyfiyyətsiz kosmetika vasitələrinə də rast gəlmək mümkündür. Bir çox metrolara yaxın yerlərdə bu cür ucuz və keyfiyyətsiz kosmetikalar kifayət qədərdir. Bu cür yerlərdən 1 manata dodaq boyası, 20 qəpiyə göz üçün karandaş, 2 manata pudra, 2 manata tuj və sairə tapmaq mümkündür. Maraqlısı isə odur ki, insanın üzü, gözü ilə təmasda olacaq və zərərli olan bu kosmetik vasitələrin də müştəriləri var. Azərbaycanda qadınlar bəzən aldıqları kosmetikanın mənşəyi, istehsal tarixi və saxlanma şəraiti ilə maraqlanmırlar. Daha çox qiymətin ucuz olmasına üstünlük verirlər. Görünür ki, düşünmədən ucuz olduğu üçün bu cür kosmetik vasitələri alan xanımlar sabah hansı problemlərlə üzləşəcəklərindən xəbərsizdirlər, ya da bunu görməzdən gəlirlər.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** kosmetik bazarın çirklənmiş bazar olduğunu dedi: "Kosmetika sənaye malları sektorunda ən çox çirklənmiş mallardır. Belə ki, metro çıxışlarında, harada necə gəldi dəri ilə təmasda olan pomadalar, pudralar, ətirlər satılır. Azərbaycanda ən brend mağazada belə ən saxta ətirə rast gəlmək olar. Bizim ofisimizdə bir neçə il öncə bahalı qiymətə alınmış ətir nümunəsi saxlanılır. Ölkənin məşhur adamlarından biri öz nişanlısına bu ətri alıb və görüb ki, içi boşdur. Hətta bu cür hadisələrə də rast gəlinir. Əhalidən bizə şikayətlər gələn zaman parfümeriya mallarının qaytarılmasında acizlik çəkirik. Ona görə ki, parfümeriya malları dəyişdirilməyən və qaytarılmayan mallar siyahısındadır. Nazirlər Kabinetinin qərarı sanki parfümeriya mallarının çirklənməsinə şərait yaradıb. Qanundakı boşluqdan istifadə edən VİP Həyat deyilən müəssisə külli miqdarda əhalinin tələbatına uyğun olmayan parfümeriya malları gətirir və əhalini aldadır. Malı baha qiymətə satır, geri qaytarmaq, dəyişmək lazım gəldikdə isə bunu etmirlər. Parfümeriya malları da ərzaq malları kimi üzərində yararlılıq və buraxılma tarixi olan mallardır. Amma baxsaq 90 faiz parfümeriya mallarının üzərində hər iki tarixin olmadığını görərik. Çox təəssüflər olsun ki, qanunlar şərait yaradır ki, bu bazar çirklənsin".

**Qiymətlərin bahalığına gəlincə isə bunun təbii artım olduğunu deyən qurum sədri hökumətin səhv olaraq qiymət siyasətinə qarışdığını dedi:** "Hökumət çox səhv olaraq biznes qurumlarının qiymət siyasətinə qarışır. Hökumət bolluq yaratmalı, gömrük rüsumlarını aşağı salmalıdır. Ölkə başçısının tapşırıqlarını hökumət düzgün yerinə yetirmir".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 34 (6355) 13 fevral 2016

# Dünyanın ən bahalı pitsası



Pitsa deyib, yan keçməyin. Düzdür, onu hər yerdə satın almaq olar. Amma İtaliya aşpazı olan Renato Viola pitsanın dəyərini artırmaq qərarına gəlib və özünün xüsusi reseptini hazırlayıb. Bu pitsanı kralların masasına belə qoymaq olar. Pitsanın tərkibində 3 növ kürü, matsarello pendiri, habelə bir çox bahalı təamlar olub. Bundan əlavə, pitsaya elit konyak növü sayılan "Remy Martin Louis" da qatılır. Pitsaya hətta elə-belə duz yox, Avstraliyanın narıncı rəngli duzu vurulur. Diametri cəmi 20 sm olan pitsanın dəyəri isə 8400 dollardır.



## 30 il sonra yaddaşı yerinə gəldi

Kanada vətəndaşı Sent Ketrins 30 il öncə unutduğu adını, eləcə də doğulduğu zamanı və məkanı xatırlayıb. 30 il bundan öncə amneziyaya uğrayan 51 yaşlı Sent sosial işçinin yanına gələrək adının Edqar Latyulip olduğunu və Ontarionun Kitçener şəhərində doğulduğunu deyib. Kanadalının sözlərinə görə, 1986-cı ildə, onun 21 yaşı olanda, əqli cəhətdən problemlər yaşayıb. Öz doğma şəhərindən Niaqara şəlaləsinə gedən yolda Latyulip başından ciddi zərbə alıb və beləcə kim olduğunu, harada yaşadığını unudub. Bütün bu illər ərzində onun adı itkin düşənlərin siyahısında olub. Hətta anası əlil olan oğlunun oğurlandığı qənaətinə gəlib. 30 il boyunca Latyulip Sent-Ketrinsdə, doğma şəhərindən saat yarımlıq məsafədə yaşayıb. Edqarın ailəsinə xəbər verilib ki, o, sağdır. Doğmalarını təsdiqlətməsi üçün ona DNK testi də edilib. Kişinin anası danışıb ki, oğlunun itdiyi ilk iki il özündə olmayıb. Bu hekayəni araşdıran detektiv Duyen Qinqeriç isə deyib ki, bu, onun təcrübəsində ilk belə hadisədir. Onun sözlərinə görə, itkin düşdüyü zənn edilən şəxsin amneziya qurbanı olaraq başqa bir şəhərdə yaşaması faktına bu günə qədər rast gəlinməyib.

# Mənzili 1,5 dollara aldı, təmirinə 150 min funt sterlinq xərclədi



İngiltərənin Liverpul şəhərinin sakinlərindən biri 1,5 dollara aldığı dağılmış, uçuq-sökük, viranə mənzili lüks yaşam məkanına çevirib. Taksi sürücüsü, 45 yaşlı Cəlal Madda satın aldığı mənzilin təmirinə 150 min funt-sterlinq sərf edib. Milli.Az Daily Mail-ə istinadən bildirir ki, mənzilin tam təmiri başa çatıb və Cəlal Madda ailəsi ilə birlikdə Milad bayramından sonra bu mənzilə köçəcək. Liverpul şəhər bələdiyyəsi kənar məhəllələrdə yaşamı aktivləşdirmək və sakinlərin sayını artırmaq üçün uçulub-dağılan binalardakı mənzilləri 1 funt-sterlinqdən satışa çıxarmışdı. Cəlalın sözlərinə görə, 48 yaşlı xanımı Çaminda və iki qızı təmirdən sonra mənzili çox bəyəniblər.

# Bu qadın pendir görən kimi ağlayır



İsveçin Bari şəhərinin sakini panikalı xəstəliyi barədə jurnalistlərə danışıb. "The Daily Express" qəzetinin məlumatına görə 33 yaşlı Anna Bondesson bildirib ki, pendirin bir növü onu ağlamağa vadar edir. Biznes analitik kimi çalışan qadın qorxusunun təbiətini izah edə bilmir. Fobiyasını isə əyləncəli hesab edərək, onunla mübarizə etməyi düşünmür. Bondesson deyir ki, məhz bu səbəbdən marketlərin pendir şöbəsinə ayaq basmır. Səbəb "o sarı, iyli zəhər"lə qarşılaşmamaq istəyidir. Qızın sözlərinə görə, başqaları pendir yeyəndə o, özünü həyəcanlı hiss edir: "Bir dəfə iş yoldaşım mikrodalğalı sobaya pendirli piroq qoydu ki, qızdırsın. Az keçmədən onun qoxusu yayıldı və mən panikaya qapıldım".

Qadın bu qorxusuna görə sevgilisi ilə ayrılmaq zorunda qalıb: "Bir dəfə mən onun evinə qonaq getmişdim. O, qonaq otağına əlində pendir dolu boşqabla girdi və mənə onu tutmağımı dedi. Mən otaqdan ağlayaraq çıxdım və təbii ki, biz bir daha görüşmədik".



## İstirahət günləri iki saat artıq yatanların... çəkisi artır

İstirahət günləri normadan artıq yatmaq bəlkə də insanların ən zəif yerlərindən biridir. Alimlər artıq yuxunun piylənməyə səbəb olduğunu bildirirlər. Hər hansı şəxs nə qədər çox yatırsa, bir o qədər də piylənmə ilə əlaqədar xəstəliklər qazanır.

Mütəxəssislərin rəyinə görə, iş və istirahət günlərindəki yuxu müddətinin fərqi bədən üçün təhlükə törədir. Onlar bunu 800-dən çox könüllü insan üzərində araşdıraraq sübut ediblər. Əvvəlcə könüllülərin çəkisi, boyu ölçülüb, onlardan qan nümunələri götürülüb. Sonra könüllülər arasında neçə saat yatmaları haqqında sorğu aparılıb və maraqlı nəticələr alınıb.

**Məlum olub ki, adi iş günü ilə müqayisədə istirahət günü iki saat artıq yatanların çəkiləri artır və onlarda diabet xəstəliyinə meyillilik yaranır. Mütəxəssislər vəziyyətdən çıxış yolu üçün fəal həyat sürməyi, səhər tezdən idman zallarına getməyi məsləhət bilirlər.**






**QOÇ** - Qarşınızda romantik bir gün durur. Bu səbəbdən də fəaliyyətə ara verib ürəyinizə yaxın insanlarla bir yerdə olun. Ailə-sevgi münasibətlərində təşəbbüskarlığı ələ alın.



**BUĞA** - Baxmayaraq ki dünəndən mənfi enerjili Ay bürcünüzdə qərar tutub, ötən günlərdən başladığınız əksər işləri uğurla davam etdirə biləcəksiniz. Hər hansı mübahisəyə isə yol verməyin.



**ƏKİZLƏR** - Səhhətinizdə və ovqatınızda neqativ halların baş qaldırması fəaliyyətinizdə xoşagəlməzlik yarada bilər. Bu səbəbdən istirahət etmək və ya səfərə çıxmaq sizi sakitləşdirə bilər.



**XƏRÇƏNG** - Planetlərin bürcünüzdəki neqativ quruluşu müəyyən vaxt ərzində riskdən və gizli sövdələşmələrdən uzaq olmağınızı tövsiyə edir. Olduqca ehtiyatlılıq göstərməli, müdafiəni gücləndirməlisiniz.



**ŞİR** - Fiziki işlərlə olmasa da, zehni və mənəvi məsələlərdə ulduzlar yardımçınız olacaq. Perspektivli müzakirələr, yeni tanışlıqlar üçün şanslarınız artacaq. Dinə zidd hərəkətlərə yol verməyin.



**QIZ** - Ardıcıl səhvlərə son qoymaq istəyirsinizsə, bu tarixdən maksimum yararlanın. Çətin mərhələlərdə təcrübəli adamlarla məsləhətləşin. Əsas diqqəti isə ailə və sevgiyə yönəldin.



**TƏRƏZİ** - Bütün vacib işlərinizi nahara qədər həyata keçirin ki, sonrakı müddətdə mənəvi duyğulara qapıla biləsiniz. Doğmalarınızla münasibətlərdə sülhpərvər mövqeyə sahib olun.



**ƏQRƏB** - Günün ümumi mənzərəsindən narazı qalmayacaqsınız. Amma gərək bəzi problemlərə görə, yalnız başqalarını deyil, özünüzü də günahlandırasınız. Savab işlərinizin sayını artırın.



**OXATAN** - Ulduzlar bir an da boş oturmamağı məsləhət görür. Mühüm sirlərinizi başqalarına açmayın ki, sonra sizə əngəl yaratmasınlar. Bu füsunkar təqvimin bütün öhdəliklərinə doğru qətiyyətlə irəliləyin.



**OĞLAQ** - Qarşınızda ziddiyyətli məqamlar dursa da, iştirakçısı olduğunuz situasiyanı mövqeyinizə uyğunlaşdırmağı bacaracaqsınız. Bu baxımdan bəzi məsləhətləşmələr səmərəli ola bilər.



**SUTÖKƏN** - Peşənizlə bağlı işlərdə passivlik gözlənildiyindən enerjinizi münasibətlər istiqamətinə yönəldin. Araları soyuyan insanları barışdırın. Axşama doğru hər mənada ehtiyatlı olun.



**BALIQLAR** - Bu vaxta qədər nail ola bilmədiyiniz bəzi planları aktiv müstəviyə çıxarmaq üçün şanslar yaranacaq. Bəzi dostların da deyilən məsələdə sizə köməyi dəyəcək. Büdcənizdə dönüş də mümkündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İnsanlara ehtiyat orqan hazırlanacaq



Dünyada ilk dəfə qoyunu (Dollini) klonlaşdıran heyətin üzvü olan professor Lan Vilmut bildirib ki, insanları klonlamağı etik hesab etmir. Onun sözlərinə görə, hazırda insanları klonlamaq əvəzinə, onlara əlavə ehtiyat orqanlar hazırlamağı plnlaşdırırlar. Professor deyib ki, hələlik embrionlar üzərində araşdırma işləri aparılır. Belə ki, embrion yaradıb, onlardan insan sağlamlığı üçün istifadə çalışmaları mövcuddur. Bundan başqa, qoyun Dollinin klonlama texnologiyası ilə insan üzərində klonlaşdırma aparmaq da mümkün deyil: "Yeni texnikaların isə insan üzərində klonlamada uğur qazanıb-qazanmayacağını bir neçə il içində görə biləcəyik".

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300